20 noyabr 2020-ci il
№39 (8903)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

# QARABAĞ bizimdir, Azərbaycandır!



İlham ƏLİYEV,
Müzəffər Ali Baş Komandan

## BİZ bundan sonra qürur hissi ilə yaşayacağıq

Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq – müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi.

# BİZ bundan sonra qürur hissi ilə yaşayacağıq




Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar

**Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.**

**Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır.**

**Biz düşməni məcbur etdik ki, kapitulyasiya aktına imza atsın və beləliklə, bizim bu günə qədər işğal altında qalan Ağdam, Laçın və Kəlbəcər rayonları da yaxın günlərdə Azərbaycana qayıdır. Amma baxın, görün, mənfur düşmən hansı vəhşiliklər törədir - evləri yandırırlar, məktəbləri yandırırlar, ağacları qırırlar, elektrik xətlərini qırırlar.**

**Füzuli şəhəri işğalçılardan azad edilib. Füzuli şəhərində Azərbaycan bayrağı qaldırılıb. Biz Füzuliyə qayıtmışıq.**

**Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəmizi böyük qürur hissi ilə qeyd edir. Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi.**

**Biz Ermənistan ordusunu çökdürdük və eyni zamanda, Ermənistana uzun illər rəhbərlik etmiş cinayətkarlara da dərs verdik.**

**Bizim tarixi qələbəmiz erməni faşizmi üzərində əldə edilmiş qələbədir. Bizim zəfərimiz haqqın, ədalətin bərpasıdır.**

**Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq.**
**Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**



# Siz xalqımızın yaddaşında qalib Komandan kimi əbədi yaşayacaqsınız

## Təhsil işçiləri, məktəblilər Müzəffər Ali Baş Komandana müraciət ünvanlayırlar



**Müzəffər Ali Baş Komandanımız!**

Əzəli torpağımız Qarabağımızın işğalçılardan azad olunması münasibətilə Sizə şəxsən öz adımdan dərin təşəkkürümü bildirirəm.

Çiçəklənən, qüvvətlənən, bütövləşən Azərbaycanın gələcəyi uğrunda apardığınız möhtəşəm işlərinizdə Sizə böyük uğurlar arzu edirəm.

Qoy şanlı Vətənimiz Azərbaycan daim var olsun!

Yaşasın Müzəffər Ali Baş Komandanımız!

Var olsun, qalib Ordumuz!

Hörmətlə,

**Mahir Səlimov,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialının dosenti*

---

**Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan.**

Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın tam Qələbəsi ilə başa çatması bizi hədsiz sevindirdi. Bu Qələbə münasibətilə Sizi ürəkdən təbrik edirik. Biz fəxr edirik ki, Sizin kimi Liderimiz, yenilməz Prezidentimiz var. Məhz Sizin işgüzar fəaliyyətiniz sayəsində Azərbaycan Ordusu şanlı Qələbəyə nail oldu. Artıq Siz xalqımızın şanlı tarix yazan qəhrəman Sərkərdəsisiniz.

Yaşasın Ali Baş Komandan! Yaşasın Azərbaycan Ordusu!

Hörmətlə,

Dövlət İdarəetmə və Texnologiya kollecinin kollektivi adından

**Həzrət Qocayev,**
*Zaqatala şəhəri*

---

**Müzəffər Ali Baş Komandan.**

Bəzi beynəlxaq güclərin bizim əleyhimizə olduğu bir vaxtda şəxsi və siyasi iradə nümayiş etdirərək, xalqımıza qələbə sevinci yaşatdığınız üçün Sizə təşəkkürümüzü bildiririk.

Azərbaycan xalqının adını dünyanın qalib və məğrur xalqı kimi tarixə yazdığınız üçün Sizə minnətdarıq. Qələbəmiz mübarək!

Yaşasın Azərbaycan!

Hörmətlə,

95 nömrəli orta məktəbin kollektivi adından

**Kərim Novruzov,**
*Ağdam rayonu*

---

**Hörmətli cənab Prezident.**

Azərbaycan xalqına bəxş etdiyiniz bu qürur və fəxarətə görə Sizə hədsiz minnətdarlığımızı bildiririk. Uzun illərdən bəri xalqımızı, bizləri həyatımızda, mənəviyyatımızda, şəxsiyyətimizdə başıaşağı edən, utanc yerimiz olan haqsızlığı məharətli diplomatik qabiliyyətinizlə, rəşadətli sərkərdəliyinizlə aradan qaldırdınız və çətin bir vəziyyətdə hiyləgər ermənilərə qalib gəldiniz.

Bu əməllərinizlə Siz xalqımızın yaddaşında xilaskar rəhbər, qalib Komandan kimi əbədi yaşayacaqsınız.

Uca Allah Sizi qorusun!

Hörmətlə,

**Rzayev Orucəli,**
*Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının əməkdaşı*

---

**Hörmətli Prezident cənab İlham Əliyev.**

Mənfur düşmən üzərində qazandığımız qələbə münasibətilə Sizi və bütün xalqımızı təbrik edirik. Biz hər şey üçün Sizə və başçılıq etdiyiniz şanlı Ordumuza minnətdarıq, cənab Prezident!

Xalqımızın rifahı və Azərbaycanın gələcək inkişafı naminə bütün fəaliyyətinizdə Sizə uğurlar arzulayırıq.

Yaşasın Azərbaycan!

Hörmətlə,

Cavanşir Qasımov adına kənd tam orta məktəbinin kollektivi adından

**Abdullayev Nemət Əlizaman oğlu,**
*Masallı rayonu, Banbaşı kəndi*

---

**Hörmətli cənab Prezident.**

Sizi və bütün Ordumuzu Qələbə günü münasibətilə təbrik edirəm. Xalqımıza böyük Qələbə sevinci yaşatdığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm.

Sizin müdrikliyinizə və qətiyyətinizə əminik. Xalqımızın, dövlətimizin mənafelərini qorumaq üçün davamlı səy göstərdiyinizə də inanırıq. Uca Allah qətiyyətinizi, gücünüzü daim artırsın və Sizin vasitənizlə xalqımızı gücləndirsin. Tanrı Sizi qorusun!

Hörmətlə,

**Rzayeva Almaz İbad qızı,**
*90 yaşlı Əməkdar müəllim, Göygöl şəhəri*

---

**Müzəffər Ali Baş Komandan.**

Qədim Şuşa şəhərinin işğaldan azad olunması münasibətilə məktəbin bütün müəllim və şagird heyəti adından Sizi təbrik edirik. Sizə möhkəm cansağlığı, bu şərəfli işinizdə daha böyük uğurlar arzulayırıq.

İnanırıq ki, tezliklə Azərbaycanın üçrəngli Bayrağı Ağdam şəhərində dalğalanacaq. Allah Sizə və igid əsgərlərimizə yardımçı olsun! İnşallah!

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Hörmətlə,

S.Həsənov adına Əfətli kənd tam orta məktəbinin kollektivi adından məktəbin direktoru və müəllimi

**Həsənova Sara Baxış qızı,**
**Həsənova Şərifə Behbud qızı,**
*Ağdam rayonu, Əfətli kəndi*

---

**Müzəffər Ali Baş Komandan.**

Sizi, müzəffər Ordumuzu və Azərbaycan xalqını möhtəşəm Qələbə münasibətilə təbrik edirəm. Dövlətimizin ərazi bütövlüyünü bərpa edərək böyük uğura imza atdınız. Bu işi qəhrəmanlıqla və canı bahasına həyata keçirən igid əsgər və zabitlərimizə cansağlığı, şəhidlərimizə isə rəhmət diləyirəm.

Allah Sizi qorusun!

Hörmətlə,

**Həsənəli Aslanov,**
*Azərbaycan Dövlət Aqrar Universitetinin kafedra müdiri, Gəncə şəhəri*

---

**Salam, İlham babam.**

Mən balaca olsam da, bu gözəl günləri görür və buna sevinirəm. Sizi qədim şəhərimiz olan Şuşanın alınması münasibətilə təbrik edirəm. Əminik ki, Sizin sayənizdə Qarabağımıza məktəbdən ekskursiya təşkil ediləcək, biz də Şuşanı və digər gözəl yerlərimizi görəcəyik.

Mən Sizi çox sevirəm və dərslərimi əla oxuyaraq, Azərbaycana, Sizə layiqli övlad olacağam.

Hörmətlə,

**Müzəffərli Alsu Müzəffər qızı,**
Bakı şəhəri, Nizami rayonu

# Ali Baş Komandan kimi qazandığınız bu tarixi qələbə şanlı tariximizə qızıl hərflərlə yazılmışdır




**Möhtərəm cənab Prezident!**

Vətən Müharibəsində inamlı qələbə qazanmaqla 30 ilə yaxın Ermənistanın işğalı altında olan əzəli torpaqlarımızın azad edilməsi münasibətilə Sizi və müzəffər Azərbaycan Ordusunu ölkəmizin bütün təhsil işçiləri adından ürəkdən təbrik edirik. Ali Baş Komandan kimi qazandığınız bu tarixi qələbə şanlı tariximizə qızıl hərflərlə yazılmışdır. Bu möhtəşəm qələbə xalqımızın inamını özünə qaytarmış, uzun illər ərzində doğma yurdlarına qayıtmaq eşqi ilə yaşayan məcburi köçkünlərin həsrətinə son qoymuşdur. Eyni zamanda bu qələbə bütün dünyada Azərbaycan dövlətinin və xalqının qüdrətini və sarsılmaz iradəsini, Ordumuzun gücünü nümayiş etdirmişdir. Bu qələbə Azərbaycanı sonsuz məhəbbətlə sevən Ümummilli lider Heydər Əliyevin azadlıq ideallarının parlaq təzahürü kimi xüsusilə əhəmiyyətlidir.

**Möhtərəm cənab Prezident!**

Bu qələbə həm də ölkəmizdə quruculuq və inkişaf üçün müstəsna imkanlar yaratmışdır. İnanırıq ki, Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad olunması ölkəmizin sosial-iqtisadi tərəqqisinə əlverişli zəmin yaradacaq.

Bu misilsiz qələbə münasibətilə bır daha Zati-alilərinizi ürəkdən təbrik edir, doğma Azərbaycanımızın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda göstərdiyiniz qətiyyətə, əzmkarlığa, hərbi-siyasi iradəyə görə Sizə öz dərin minnətdarlığımızı bildiririk. Azərbaycanın parlaq gələcəyi naminə çətin, lakin son dərəcə şərəfli və məsul fəaliyyətinizdə böyük müvəffəqiyyətlər arzu edirik. Əmin ola bilərsiniz ki, bütün təhsil işçiləri Sizin ətrafınızda sıx birləşmişdir və ölkəmizin inkişafı naminə üzərlərinə düşən öhdəlikləri böyük əzmlə yerinə yetirəcəklər.

Hörmətlə,

**Emin Əmrullayev,**
**Təhsil naziri**

# Azərbaycan tarixi ədaləti bərpa etdi

## Əcnəbi tələbələr xalqımızın şanlı qələbə sevincini bölüşür

**Oruc MUSTAFAYEV**

Sentyabrın 27-dən erməni təxribatlarına qarşı Müzəffər Ordumuzun güclü və sürətli əks-hücum əməliyyatı ilə başlayan müqəddəs Vətən savaşımız böyük Qələbə ilə nəticələndi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz xalqımızı əzəli torpaqlarımıza qovuşdurdu. Azərbaycan universitetlərində təhsil alan əcnəbi tələbələr də xalqımızın Vətən müharibəsində şanlı qələbə sevincini bölüşürlər.

### Azərbaycanı Qarabağsız təsəvvür etmək mümkün deyil

*Asgar Muzaffar (Qazaxıstan),*
*BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbəsi*

- 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan tarixi ədaləti bərpa etdi. Azərbaycan işğalçılar üzərində həm diplomatik, həm də hərbi qələbə qazandı. Azərbaycanı Qarabağsız təsəvvür etmək mümkün deyil, Qarabağ Azərbaycanın bölünməz, qədim və əzəli torpağıdır, Azərbaycan mədəniyyətinin beşiyidir. Azərbaycan münaqişənin həllini təxminən 30 il gözləyib. İndi münaqişə həll edildikdən sonra qaçqınlar öz torpaqlarına qayıda və öz yerlərini yenidən qura bilərlər. Xoşbəxtlik və çiçəklənmə kədər və əzabı əvəz edəcək. Əminəm ki, bu vaxta qədər işğalda olan torpaqlar onların sahibləri sayəsində çiçəklənəcək. Yollar çəkiləcək, vətəndaş infrastrukturu bərpa ediləcək və Qarabağ yeni görünüş əldə edəcək. Qarabağ münaqişəsinin həlli və Azərbaycanın bu ərazi üzərində suverenliyinin bərpası Cənubi Qafqazda sülhü təmin edəcək, gərginliyin azalmasına töhfə verəcək.

### Oğurlanmış torpaqlar sahiblərinə qaytarıldı

*Ehab Mohamed Jaber Ismael,*
*BDU-nun tələbəsi (Misir)*

- Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Erməni barbarları 30 il ərzində dini-mədəni və tarixi abidələri vəhşicəsinə dağıdıblar. Azərbaycanın işğal altında qalan torpaqlarını geri qaytarmaq niyyətində olmayan erməni işğalçı qüvvələri dinc insanlara və Azərbaycan şəhərlərinə zərbə endirərək pis niyyətli bir siyasət yürütdüyünü bir daha sübut ediblər. Dünyanın gözü qarşısında pis niyyətli erməni siyasəti iflasa uğradı. İşğal olunmuş şəhərləri, kəndləri azad etmək lazım idi və Azərbaycan xalqı torpaqlarını işğaldan azad etdi. Oğurlanmış torpaqlar sahiblərinə qaytarıldı.

Bu gün Azərbaycan xalqının həyatında çox əlamətdar, tarixi bir gündür. Bu gün Qarabağ işğalçılardan azad olmuşdur. Bu münasibətlə Azərbaycan xalqını təbrik edirik. Azərbaycanın işğal altında olan torpaqlarını geri qaytarması xəbəri məni çox sevindirdi, qürurlandırdı. Torpaq Vətəndir, bölünməzdir. Qarabağ Azərbaycandır!

### “Bu qələbə bizim qardaşlıq qələbəmizdir”

*Əsədul İslam,*
*Bakı Mühəndislik Universitetinin magistri (Pakistan)*

- Azərbaycan xalqını 44 günlük müharibə sonrası qələbə münasibəti ilə təbrik edirəm. Biz burada erməni ordusunun aqressiyasını gördük. Xüsusən də bu aqressiya dinc əhaliyə, uşaqlara, yaşlılara və qadınlara oldu. Azərbaycan ordusu isə yalnız düşmənin hərbi obyektlərini hədəfə aldı. Mən, həmçinin, Azərbaycan Ordusuna minnətdarlığımı və təbriklərimi bildirirəm. Hansı ki, müharibə qaydalarına riayət edib və humanistlik göstərib. Azərbaycan Ordusu xüsusi peşəkarlıqla və öz gücü ilə torpaqları düşməndən geri qaytardı. Pakistan xalqı olaraq Azərbaycanı təbrik edirik. Azad olunmuş torpaqlara xoş gəlmisiniz! Biz sizi sevirik, bu qələbə bizim qardaşlıq qələbəmizdir!

### “Öz torpaqlarına qayıdan azərbaycanlılara xoşbəxt və təhlükəsiz həyat arzulayıram”

*İshani Madushika Beraliya,*
*Bakı Mühəndislik Universitetinin magistri (Şri Lanka)*

- Bütün azərbaycanlıları qələbə münasibətilə təbrik edirəm. Güclü Azərbaycan Ordusu öz torpaqlarını ermənilərdən azad edib. Azərbaycanlılar yenidən Qarabağa və digər əzəli torpaqlarına qayıdırlar. Mən öz torpaqlarına qayıdan azərbaycanlılara xoşbəxt və təhlükəsiz həyat arzulayıram. Azərbaycan çox gözəl ölkədir. Və buranın xalqı çox mehriban və qonaqpərvərdir. Yaşasın Azərbaycan!

*Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil alan əcnəbi tələbələr də Qarabağ müharibəsi və Azərbaycanın zəfəri haqqında fikirlərini bölüşürlər:*

*Areeb Khan ( Pakistan):*

-Ermənistan təkcə Azərbaycanın torpaqlarını işğal etməmişdi, həm də Azərbaycanın torpaqlarını, mədəni irsini, təbii sərvətlərini dağıdıb, talayıbdır. Bilirik ki, Azərbaycanın 20 faiz torpağı 27 ildir ki, Ermənistanın beynəlxalq səviyyədə qınanan hərbi işğalı altında idi. BMT-nin 4 qətnaməsi Ermənistandan işğal olunmuş ərazilərdən dərhal geri çəkilməsini tələb etdi. Ermənistan heç vaxt buna əməl etmədi. Odur ki, Azərbaycan dövləti güclü ordusu ilə torpaqları geri aldı.

*Joseph Tijomon (Hindistan):*

- Dağlıq Qarabağı həmişə eşitmişik ki, Azərbaycan ərazisidir, bu ölkənin əzəli torpağıdır. Tarixən, həm də rəsmi olaraq bütün dünya tərəfindən bu, belə tanınıb. Son Qarabağ müharibəsi zamanı Azərbaycanın zəfər çalmasını qaçılmaz edən güclü ordusu ilə yanaşı, haqq, ədalət uğrunda müharibə aparması idi.

*Da, Mohammed (Yəmən)*

- Ermənistan dövlət olaraq 30 il əvvəl tarixi bir səhv etdi: Dağlıq Qarabağ və ətrafındakı 7 Azərbaycan rayonunu işğal etdi, insanları işgəncələrə məruz qoydu. Nəticədə çoxlu Azərbaycan vətəndaşı öz torpağından qaçqın düşdü. Hətta, özlərini haqlı da hesab etdilər, amma hadisələr dünyanın gözü qarşısında baş vermişdi. Buna baxmayaraq, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çəkilməsini tələb edən BMT-nin çoxsaylı qətnamələrinə məhəl qoymaması, işğalçılıq siyasətinin davam etdirilməsi Azərbaycan tərəfini silaha əl atmağa və torpaqlarını hərb yolu ilə almağa məcbur etdi.

*Espinoza Andres (Ekvador)*

- Biz müharibənin əleyhinəyik. Azərbaycan sülhü, əmin-amanlığı sevən ölkədir. Amma Ermənistan dövləti Azərbaycan ərazisini müharibə meydanına çevirdi, sonda da məğlub oldu. Müharibənin gedişatını biz də izlədik, Azərbaycan ordusu öz torpaqlarını qaytarmaq istədi və qısa zamanda buna nail oldu.

# Təhsil naziri İctimai Şura üzvləri ilə onlayn görüşüb

Tarixi zəfərimiz həm də Azərbaycan müəlliminin, Azərbaycan təhsilinin vətəndaş yetişdirmə məfkurəsinin qələbəsidir






Noyabrın 14-də Təhsil naziri Emin Əmrullayev Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri ilə videokonfrans formatında görüşüb.

Görüşdə nazir 44 gün davam edən Vətən müharibəsinin şanlı zəfərlə yekunlaşması münasibətilə Şura üzvlərini təbrik edib, Allahdan şəhidlərimizə rəhmət, yaralılarımıza isə şəfalar diləyib. Təhsil naziri bu müharibədə qazanılan qələbənin Azərbaycan tarixinin ən parlaq səhifəsi olduğunu diqqətə çatdırıb və bildirib ki, torpaqlarımızın işğaldan azad olunmasını şərtləndirən əsas səbəb ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin son illərdə həyata keçirdiyi güclü dövlət və ordu quruculuğu siyasətidir. Bu amil son hədəfə qədər uğurla irəliləməyimizi şərtləndirirdi, Azərbaycanın üçrəngli bayrağı doğma Qarabağda, Şuşada dalğalandı. Nazir Azərbaycana bu möhtəşəm zəfəri yaşadan dövlətimizin başçısı cənab İlham Əliyevə minnətdarlığını ifadə edib.

Sonra Təhsil naziri Emin Əmrullayev Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı təcavüzündən danışıb, müxtəlif şəhər və rayonlara raket zərbələri endirilməsi nəticəsində 10 məktəblinin həlak olduğunu, 16 məktəblinin yaralandığını və 50 təhsil müəssisəsinin dağıntılara məruz qaldığını diqqətə çatdırıb.

İşğaldan azad olunan torpaqlarımızda təhsil sahəsi üzrə görüləcək işləri xüsusi vurğulayan Təhsil naziri əlavə edib ki, artıq bununla bağlı tədbirlər planı hazırlanır və yeni yaradılacaq İşçi Qrupu bu istiqamətdə təxirəsalınmaz tədbirlər həyata keçirəcək.

Görüşdə vurğulanıb ki, bu tarixi zəfərimiz həm də Azərbaycan müəlliminin, Azərbaycan təhsilinin vətəndaş yetişdirmə məfkurəsinin qələbəsi sayılır.

İctimai Şuranın sədri Şahlar Əsgərov da öz növbəsində qələbə münasibətilə hər kəsi təbrik edib, gənclərimizdə milli-mənəvi dəyərlər və Vətənə sadiqlik tərbiyəsinin aşılanmasında məktəblərin rolunu xüsusi qeyd edib.

Videokonfransda İctimai Şura üzvləri gənclərimizin Vətən müharibəsində əsl vətənpərvərlik nümunəsi göstərməsini təhsilalanların bu ruhda tərbiyə edilməsi ilə əlaqələndirib, müharibədən sonrakı dövr ərzində görüləcək işlərlə bağlı rəy və təkliflər səsləndiriblər.

## Təhsil naziri Beynəlxalq Türk Akademiyasının prezidenti ilə görüşüb

Noyabrın 17-də Təhsil naziri Emin Əmrullayev Beynəlxalq Türk Akademiyasının ölkəmizdə səfərdə olan prezidenti Darxan Kıdırəli ilə görüşüb.

Görüşdə Təhsil Nazirliyi və Beynəlxalq Türk Akademiyası arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və gələcək perspektivləri müzakirə edilib.

Təhsil naziri Emin Əmrullayev 44 gün davam edən Vətən müharibəsinin şanlı zəfərlə yekunlaşdığı, bu dövr ərzində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı təcavüzü, müxtəlif şəhər və rayonlara raket zərbələri endirilməsi nəticəsində 10 məktəblinin həlak olduğu, 16 məktəblinin yaralandığı və 50 təhsil müəssisəsinin dağıntılara məruz qaldığı barədə məlumat verib.

## AzTU və MDU-nun birgə təşkilatçılığı ilə seminar

Azərbaycan Texniki Universiteti (AzTU) və Mingəçevir Dövlət Universitetinin (MDU) birgə təşkilatçılığı ilə "Azərbaycanda rəqəmsal ödənişlərin tətbiqi: reallıqlar və perspektivlər" mövzusunda nəzəri-praktiki seminar keçirilib.

Universitetdən bildirilib ki, ZOOM platforması üzərindən online formatda təşkil olunan seminarda MDU-nun rektoru Şahin Bayramov, ilk növbədə, Ali Baş Komandan İlham Əliyevin böyük qətiyyəti və Azərbaycan Əsgərinin rəşadəti sayəsində əldə edilən möhtəşəm qələbə münasibətilə tədbir iştirakçılarını təbrik edib. Böyük sevinc və fəxarət hissləri ilə əlamətdar tarixi günlər yaşadığımızı qeyd edən rektor Allahdan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza şəfa diləyib.

Ş.Bayramov daha sonra rəqəmsal ödənişlərin inkişafı sahəsində görülən işlər barədə ümumi məlumat verib. 2019-cu ildən MDU-nun ölkəmizin qabaqcıl ali təhsil müəssisələrindən biri olan AzTU ilə əməkdaşlığa start verdiyini bildirən rektor seminarın sözügedən əməkdaşlıq çərçivəsində baş tutduğunu diqqətə çatdırıb.

Əldə etdiyimiz böyük qələbə münasibətilə təbriklərini çatdıran AzTU-nun rektoru, professor Vilayət Vəliyev qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə zəfərlə başa vurduğumuz Vətən müharibəsində hər iki universitetin tələbə və məzunlarının da iştirak etdiyini bildirib.

AzTU ilə regionda yerləşən ali təhsil müəssisələri arasında qarşılıqlı faydalı əməkdaşlığa mühüm önəm verildiyini vurğulayan V.Vəliyev birgə layihələrin həyata keçirilməsində MDU-nu əsas tərəfdaşlardan biri olaraq dəyərləndirib. Nəzəri-praktiki seminarın mövzusunun aktuallığından bəhs edən V.Vəliyev rəqəmsal ödənişlərin əhəmiyyəti, bu sahədə həyata keçirilə biləcək tədqiqat istiqamətləri barədə fikirlərini bölüşüb.

Sonra MDU-nun iqtisadiyyat kafedrasının müdiri, dosent Cəmilə Musayeva "Rəqəmsal ödənişlərin tətbiqinin iqtisadi inkişafa təsiri", AzTU-nun iqtisadiyyat kafedrasının baş müəllimi Xəyaləddin Tağıyev "Bank sistemində rəqəmsal ödəniş texnologiyaları" və MDU-nun Elm və innovasiyalar şöbəsinin müdiri, dosent Vüqar Mustafayev "Rəqəmsal ödənişlərin genişləndirilməsində "ASAN xidmət"in rolu" mövzularında məruzələrlə çıxış ediblər.

Hər iki universitetin müəllim və tələbə kollektivi tərəfindən maraqla qarşılanan birgə seminar sualların cavablandırılması ilə başa çatıb.

## "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq!"

### Beynəlxalq yaradıcılıq müsabiqəsi




Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə cari ilin 13 noyabr - 31 dekabr tarixlərini əhatə edən "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq!" adlı beynəlxalq yaradıcılıq müsabiqəsinə start verilib.

Mövcud pandemiya şəraiti ilə əlaqədar onlayn platformada təşkil olunan müsabiqənin 3 yaş qrupu (9-11 yaş, 12-14 yaş, 15-17 yaş) və 4 nominasiya (esse, şeir, mahnı, nitq) üzrə keçirilməsi nəzərdə tutulub. Müsabiqəyə18-28 yaş arası gənclərin də qoşulması mümkündür. İştirakçılar 1 nominasiya üzrə iştirak edə, təqdim edilən işləri Azərbaycan, rus və ingilis dillərində hazırlaya bilərlər. İşlər hazırlanarkən aşağıdakı şərtlər nəzərə alınmalıdır:

- *Essenin başlığı olmalıdır. Bir A4 səhifəsindən çox olmamalıdır, çap formasında göndərilməlidir.*
- *Şeirlərin başlığı olmalıdır və 40 misradan çox olmamalıdır. Şeirlər çap formasında göndərilməlidir.*
- *Mahnı 4 dəqiqədən çox olmamalıdır. Mahnılar melodiyaya, bəstəyə, özünəməxsusluğa və sözlərə (lazım olduqda) əsasən qiymətləndiriləcək. Yazının keyfiyyəti nəzərə alınmır. Mahnının sözləri çap şəklində göndərilməlidir.*
- *Nitq nominasiyası üzrə 3 dəqiqədən çox olmayan çıxışlar, video və ya audio formatda göndərilməlidir. Çıxışın mətni çap şəklində göndərilməlidir.*

Müsabiqədə iştirak etmək istəyənlər özləri barədə məlumatı (adı, soyadı, təvəllüdü, təhsil aldığı müəssisə, ölkə, şəhər, ünvan və əlaqə nömrəsi) əlavə edərək, hazırladıqları işlə birgə *shushacompetition@gmail.com* ünvanına göndərməlidir. Müsabiqə ilə bağlı (012) 492-57-67, (055) 902-38-56 ("WhatsApp") telefon nömrələri ilə əlaqə saxlanıla bilər.

Müsabiqənin qalibləri növbəti ilin yanvar ayında elan olunaraq diplom və dəyərli hədiyyələrlə mükafatlandırılacaqlar.

Qeyd edək ki, müsabiqənin keçirilməsində əsas məqsəd işğal olunmuş torpaqlarımızın azad olunması münasibətilə yeni bədii mətnlər yaratmaq, xalqımızda hərbi vətənpərvərlik ruhunu daha da yüksəltmək, gənclərə milli həmrəylik və qəhrəmanlıq kimi ülvi hissləri aşılamaq, həmçinin istedadlı uşaqları üzə çıxarmaqla onların bədii-estetik səviyyəsini yüksəltməkdən ibarətdir.

# Tarixi Qələbədə təhsilin rolu

## Emin Əmrullayev: “Azad olunan ərazilərimizdə ən müasir məktəblər tikiləcək”




Noyabrın 18-də Təhsil naziri Emin Əmrullayev “ATV Aktual” proqramının qonağı olub. Proqramda qələbəmizdən sonrakı mərhələdə Təhsil Nazirliyinin üzərinə düşən tarixi missiya, işğaldan azad olunan ərazilərimizdəki məktəblərin bərpası, koronavirusun təhsil sahəsinə təsiri və digər mühüm məsələlər ətrafında söhbət aparılıb.

### Yeni çağırışlar, imkanlar, yeni mərhələ

- *Cənab nazir, xoş gördük Sizi. Studiyamıza xoş gəlmisiniz. Əvvəla, bu tarixi Qələbə münasibətilə Sizi təbrik edirik. Bu yeni missiyada Sizin üzərinizə düşən məsuliyyət də çox böyükdür. Yəqin ki, bu yeni tarixi missiyada Təhsil Nazirliyinin öz yeri olacaq. Görünən odur ki, işğaldan azad olunmuş ərazilərimizdə təhsil sisteminin qurulması, məktəblər, təhsilalanlarla bağlı xeyli işlər olacaq...*

- Mən də istərdim ki, ilk növbədə, xalqımızı təhsil ictimaiyyəti adından təbrik edim. Eyni zamanda bu qələbədə böyük rolu olan əsgərlərimizə, ordumuza öz təşəkkürümü bildirirəm. Bu qələbənin memarı olan möhtərəm cənab Prezident İlham Əliyevə təhsil ictimaiyyəti adından öz minnətdarlığımı bildirirəm. Təbii ki, bu Qələbə bizim tariximizdə yeni bir dövr açır. Bu qələbənin qazanılmasında bizim şəhid olan vətəndaşlarımıza Allahdan rəhmət diləyirəm. Bilirsiniz ki, müəllimlərimiz, tələbələr, şagirdlər, valideynlər arasında da kifayət qədər itkilərimiz olub, yaralılarımız da var. Bütün bu məsələlər də öz-özlüyündə nəzərə alınmalıdır. Təbii ki, biz təhsilimizin, xalqımızın, ümumiyyətlə, millətimizin tarixində yeni bir səhifəyə qədəm qoyuruq. Hər bir sahədə olduğu kimi, təhsil sahəsinin qarşısında yeni çağırışlar, imkanlar, yeni mərhələ açılır. İnanıram ki, təhsil ictimaiyyəti, müəllimlərimiz, təhsili idarə edən həmkarlarım qarşıda qoyulan bu məsələlərə, tapşırıqlara müvafiq qaydada əməl edərək böyük nailiyyətlər əldə edəcəklər.

### Görülən işlərin nəticəsi müsbətdir

- *Cənab nazir, siz də qeyd etdiniz ki, Vətən müharibəsində savaşanlar, bizim igid oğullar arasında təhsil işçiləri də olub. Müəllimlər, tələbələr.. Məsələn, işini yarımçıq qoyub döyüşə gedən müəllimlərimiz, təhsilini yarımçıq qoyub döyüsə yollanan tələbələrimiz var. Biz sosial şəbəkələrdən də eşidirik, məsələn, hansısa kəsiri yaranıb, özü tarix fənnindən kəsilib, ancaq bu gün Qarabağ savaşında tarix yazan tələbə əsgərlərimiz var. Və çox müraciətlər olur, yəqin sizə də müraciətlər olur ki, müharibədə bir şəkildə iştirak edən təhsil işçiləri ilə bağlı hansısa, belə deyək, imtiyazlar, güzəştlər olacaqmı? Bununla bağlı Təhsil Nazirliyinin üzərinə düşən nədir, hər hansı təklif, təşəbbüslə çıxış edəcəksinizmi?*

- Mən bu suala iki tərəfdən yanaşardım. Birinci məsələ, xalqımızın böyük qələbəsində, təbii ki, Azərbaycan təhsil işçilərinin uzunmüddətli bir əməyi vardır. Bu, çox vacib məqamdır, çünki hər bir insanın müəllimi var. O cümlədən də bu döyüşlərdə iştirak edən, bu qələbədə rolu olan hər bir insanın və müəllimlərimizin. Ümumiyyətlə, təhsilimizin görünən tərəfi odur ki, bu dövr ərzində həyata keçirilən, görülən işlərin nəticəsi müsbətdir. Bu mənada, fürsətdən istifadə edərək, bütün müəllimlərimizə və təhsil işçilərimizə öz təşəkkürümü bildirirəm. O ki qaldı konkret müraciətlərə, təbii ki, müharibə insanlara müxtəlif cür təsir edir. Müharibə ilə əlaqədar insanların bir qrupu sığınacaqlara köçürüldü, bir qrup tələbələrimiz könüllü və yaxud səfərbərliyə alınmaqla müharibədə iştirak ediblər. Təbii ki, onların da fərqli problemləri var. Bunu da başa düşürük. Hazırda Təhsil Nazirliyinə müraciətlər olunur. Müxtəlif qəbildən olan müraciətlər var. Bərpa olunmaqla, kəsirlərlə bağlı və s. Təhsil Nazirliyi olaraq, təbii ki, çalışırıq ki, bu problemləri toplayaq, dinləyib sistemləşdirək. Problemlərin xarakterindən asılı olaraq müxtəlif həll yolları var. Bəzi hallarda bu həll yolları mümkündür, qısa zamanda aidiyyəti ali təhsil müəssisələrinin rəhbərlərinə və ya digər təhsil müəssisələrinə bununla bağlı tapşırıq verilib. Bir çox hallarda bu müvafiq qaydalarla tənzimlənir. Hazırda bu məlumatlar tərəfimizdən toplanır və sistemləşdirilərək aidiyyəti şəkildə digər həmkar qurumlarımızla və o cümlədən, əgər qaydalarda dəyişikliyə ehtiyac varsa, bu tip qaydalarda dəyişiklik etməklə çalışırıq ki, bu qələbədə rolu olan hər bir soydaşımıza köməklik göstərək. Ona görə də mənim xahişim mümkün dərəcədə prosesləri səbirlə gözləməkdən ibarətdir. Təhsil Nazirliyi olaraq biz də öz tərəfimizdən həmin qaydaları dəyişməklə, normativ baza yaratmaqla məsələləri tənzimləməyə çalışırıq. Mən yenə də deyirəm, biz bəzi hallarda bu məsələləri mümkün dərəcədə ali təhsil müəssisələrinin rəhbərləri və aidiyyəti insanlarla danışmaqla həll etməyə çalışırıq. Yəni problemdən asılı olaraq bütün vətəndaşlarımızın məsələlərinə vaxtında baxılır və əgər mümkünsə, qanunvericiliyə zidd deyilsə, verilmiş şəraitə uyğundursa, təbii ki, həll edilir. Bəzi hallarda mümkün olmur, artıq bu halda qarşılıqlı anlaşma şəklində vətəndaşa bildirilir.

### Ermənilər tərəfindən məktəblərin yandırılması qınanılmalıdır

- *Əsas məsələ odur ki, bu məsələlər gündəmdədir və araşdırılır və müvafiq tədbirlər görüləcək. 44 günlük müharibə dövründə Ermənistan tərəfi dinc sakinləri hədəfə aldı və hədəfdə çox təəssüf ki, bizim azyaşlı uşaqlar da var idi və siz də bir neçə dəfə sosial şəbəkələrdə qeyd etmişdiniz bizim düşmən hədəfinə gedən şagirdlərlə, yaralılarla, dağılan məktəblərlə bağlı. Bu haqda, yəqin ki, statistika hazırlanıb və dövlət başçısı da dəfələrlə çıxışlarında qeyd edib ki, Ermənistan törətdiyi bütün cinayət əməllərinə görə beynəlxalq hüquq qarşısında cavab verəcək. Bütün faktlar sənədləşdirilir və müvafiq qaydada beynəlxalq qurumlara göndəriləcək. Təhsil Nazirliyi də yəqin üzərinə düşəni edir və sənədlər hazırlanır...*

- Bəli, hazırlanır. İlk növbədə, statistika ondan ibarətdir ki, qeyd etdiyim kimi, təəssüflər ki, 10 şagirdimiz düşmənin raket hücumları nəticəsində həlak oldu. Bir daha Allahdan onlara rəhmət diləyirəm. Eyni zamanda, bu dövr ərzində təxminən 340 min şagirdimizin təhsil aldığı məktəblər risk zonasına daxil olduqlarına görə orada təhsilin həyata keçirilməsi, ümumiyyətlə, mümkün olmamışdır. O cümlədən 50 məktəbimiz bu və ya digər dərəcədə dağıntılara məruz qalıb, bəziləri ümumiyyətlə yararsız hala düşüb. Təbii ki, son günlərdə müşahidə etdiyimiz hadisələr bizi, təhsil işçilərini təəssüfləndirir. Gördüyünüz kimi, Kəlbəcər rayonu ərazisində həmin yerləri tərk edən və həmin ərazilərə qanunsuz olaraq yerləşdirilmiş ermənilər tərəfindən məktəblərin yandırılması birmənalı olaraq qınanılmalıdır.

**10 şagirdimiz düşmənin raket hücumları nəticəsində həlak oldu. Bir daha Allahdan onlara rəhmət diləyirəm. Eyni zamanda, bu dövr ərzində təxminən 340 min şagirdimizin təhsil aldığı məktəblər risk zonasına daxil olduqlarına görə orada təhsilin həyata keçirilməsi, ümumiyyətlə, mümkün olmamışdır. O cümlədən 50 məktəbimiz bu və ya digər dərəcədə dağıntılara məruz qalıb, bəziləri ümumiyyətlə yararsız hala düşüb.**

- *O məktəbi yandıran məktəbin direktoru özüydü. Təhsil ocağına rəhbərlik edən şəxsin məktəbi yandırması...*

- Belə deyək, həmin yerlərdə məktəblər var idi. İnsanlarımız bizim işğala məruz qalan ərazilərimizdən çıxanda orada məktəblər və infrastruktur var idi. Onlara toxunulmamışdı. Hazırda isə bu infrastruktur istər Cəbrayılda, istər Fizulidə, Zəngilanda, Qubadlıda tamamilə yerlə-yeksan edilib. Ölkə başçısı da artıq bildirib ki, bu ərazilərimizdə daha yaxşı məktəblər, ən müasir məktəblər tikiləcək. Ancaq olan məktəblərin direktor tərəfindən yandırılması, hər şey bir tərəfə, bir təhsil işçisi olaraq bu, çox şiddətlə qınanılıb. Bu, bir vandalizmdir. Məktəb, özü də nümayişkarənə şəkildə, yandırılmamalıdır.

Ona görə də bu kimi hallar tərəfimizdən sənədləşdirilir. Müvafiq kanallarla beynəlxalq təşkilatlara çatdırılır və inanırıq ki, uzunmüddətli gələcəkdə də bu tip hadisələri biz ardıcıllıqla, davamlı olaraq gündəmdə saxlamağa çalışacağıq.

### Yeni yaradılmış infrastruktur ən müasir infrastruktur olacaq

- *Məktəblərdən bəhs etdiniz. İşğaldan azad olunan ərazilərimizdə məktəblərin bərpası necə həyata keçiriləcək? Məsələn, Şuşada, Cəbrayılda və eləcə də digər rayonlarda elə məktəblərimiz var ki, yaşı 100 -dən artıqdır. Yəni, belə deyək, bizim üçün tarixi abidə kimi hesab olunacaq məktəblərdir. Bu cür təhsil ocaqları ilə bağlı hansı işlər görüləcək?*

- Ümumiyyətlə, bildiyiniz kimi, geriyə, həm də işğaldan azad olunan torpaqlara qayıdış kompleks yanaşma tələb edir. Həm infrastrukturun bərpası, həm insanların oraya qayıtması, həmçinin təhsil müəssisələrinin fəaliyyətinin bərpa edilməsi.

**Məktəblərin və infrastrukturun bərpası təkcə Təhsil Nazirliyinin deyil, digər aidiyyəti həmkar qurumlarla birlikdə ölkə başçısının müvafiq tapşırıqları əsasında həyata keçiriləcək. Hətta dəfələrlə qeyd olunub ki, yeni yaradılmış infrastruktur ən müasir infrastruktur olacaq.**

Məktəblərin və infrastrukturun bərpası təkcə Təhsil Nazirliyinin deyil, digər aidiyyəti həmkar qurumlarla birlikdə ölkə başçısının müvafiq tapşırıqları əsasında həyata keçiriləcək. Hətta dəfələrlə qeyd olunub ki, yeni yaradılmış infrastruktur ən müasir infrastruktur olacaq. Biz buna inanırıq. Həmin ərazilərdə, bildiyiniz kimi, söhbət yüzlərlə məktəbdən, bir neçə peşə təhsil müəssisəsindən gedir. Onların bərpası addım-addım, planlı şəkildə olmalıdır və yaxşı xəbər ondan ibarətdir ki, planlaşdırma baxımından orada hər şey yenidən yaranır. Düşünürəm ki, işlər düzgün aparılarsa, təhsilalanlar üçün daha yaxşı imkanlar yaradıla bilər.

- *Cəbhə bölgəsindəki məktəblərin normal fəaliyyətə qayıtması üçün hansı işlər görülür? Qeyd etdiyiniz kimi, Vətən müharibəsi dövründə orada bəzi məhdudiyyətlər qaçılmaz idi. İndi artıq həyat normala dönərkən hansı işlər görüləcək?.*

- Ümumiyyətlə, istənilən müharibə həmişə insanların psixologiyası, xüsusilə uşaqların psixologiyasına mənfi təsir edir. Ona görə də burada iki məsələ var. Bir məsələ psixoloji dəstəyin göstərilməsidir. Biz hazırda həm Qırmızı Xaç Cəmiyyəti, YUNİSEF təşkilatı ilə çox sıx şəkildə bu istiqamətdə işləyirik.

⇨Ardı səh.7

# Tarixi Qələbədə təhsilin rolu

## Emin Əmrullayev: "Azad olunan ərazilərimizdə ən müasir məktəblər tikiləcək"




⇦ Əvvəli səh.6

Bir neçə istiqamət müəyyən olunub. Birinci istiqamət olaraq, təbii ki, psixoloji dəstək və yardım göstərilməsidir. Eyni zamanda, ərazilərin minalardan və mərmilərdən zərərsizləşdirilməsi ilə bağlı aidiyyəti qurumlarla əlaqəli şəkildə, onlarla əməkdaşlıqla maarifləndirmə işlərinin həyata keçirilməsi təmin olunur. Təbii ki, uzunmüddətli vədədə çalışırıq ki, həmin müəssisələrdə tədris və təhsil yaxın gələcəkdə bərpa edilsin. Növbəti illərdə biz bunun xüsusi olaraq həmin bölgələrdə - indi artıq onların bəziləri cəbhə bölgəsi deyil, cəbhə xəttində deyil, ona görə düşünürəm ki, həmin məktəblərə aid xüsusi proqramların həyata keçirilməsi tərəfimizdən reallaşdırılacaq.

### Uğurları bir dərs kimi şagirdlərimizə çatdırmalıyıq

- *Torpaqlarımız artıq düşməndən azad edilib və uzun illər idi ki, bizim dərsliklərimizdə işğal tarixləri yer tuturdu. Bu gün mühüm məsələlərdən biri, yəqin ki, dərsliklərin dəyişdirilməsi ilə bağlıdır. Qələbədən sonra yeni dərsliklərin hazırlanması qaçılmazdır. Yəqin ki, bu istiqamətdə də artıq fəaliyyətə başlamısınız...*

- Bəli. Burada, ümumiyyətlə, məzmun dəyişikliyindən danışırıqsa, təhsilin məzmunu yəqin ki, bir neçə istiqamətdə dəyişəcək. Birincı istiqamət - mahiyyət və əhvali-ruhiyyə məsələsidir. Çünki yenə də mən əvvəldən qeyd etdiyim kimi, bu günə qədər təhsilimizin, məktəblərimizin, müəllimlərimizin qarşısında duran əsas məsələ ondan ibarət idi ki, hər bir Azərbaycan vətəndaşını Vətənin müdafiəsinə, torpaqların işğaldan azad edilməsinə hazırlayaq - bu missiya artıq müəyyən mənada uğurla yerinə yetirilib. Növbəti missiya təbii ki, əldə olunan uğurların qorunması, eyni zamanda da bizim yaşadığımız mühitin və risklərin, gələcəkdə əvvəllər üzləşdiyimiz məsələlərlə bir daha üzləşməməkdir. Məktəblərdə şagirdləri bu dəyişikliklərə hazırlamalıyıq. Eyni zamanda da qısa zamanda artıq tərəfimizdən istər Şuşanın işğaldan azad olunması, istərsə də ümumiyyətlə, ikinci Vətən müharibəsi ilə bağlı materialların qısa zaman ərzində məktəblərə çatdırılması planlaşdırılır. Yəqin ki, növbəti yarımildən bununla bağlı artıq məzmunda müəyyən dəyişikliklər ediləcək. Uzunmüddətli vədədə düşünürəm ki, biz işğal tarixlərini hələ də yadımızda saxlamalıyıq, çünki çox vacib tarixlərdir. Ancaq torpaqlarımızın işğaldan azad olunma tarixləri və xalqımızın, dövlətimizin bu sahədə əldə etdiyi uğurları da bir dərs kimi şagirdlərimizə, təhsilalanlarımıza çatdırmalıyıq.

- *Təbii ki. Yəqin ki, qəhrəmanlarımızın, Vətən müharibəsində canlarından keçən qəhrəmanlarımızın da sözsüz ki, real həyat üzərində çoxlu tarixləri, hekayələri yazılacaq. Yeri gəlmişkən, belə bir sual vermək istəyirəm. Bildiyim qədər paytaxtda, yanılmıramsa, yüzdən çox məktəb şəhidlərimizin adını daşıyır. Biz qeyd edirik ki, Vətən müharibəsində təhsil işçiləri, müəllimlər, tələbələr iştirak edirlər. Gələcəkdə bu məktəblərə həmin o şəhid olan müəllimlərin adının verilməsi kimi bir məsələ gündəmə gələ bilərmi?*

- Təbii ki, Azərbaycanda həmişə şəhid övladlarının adının əbədiləşdirilməsi istiqamətində işlər görülüb. Siz artıq qeyd etdiniz, təkcə Bakıda yox, ölkənin müxtəlif yerlərində, kəndlərində şəhid adının əbədiləşdirilməsi istiqamətində, həm məktəb adları, həm də onların yaşadıqları küçələrə adlarının verilməsi məsələsi müvafiq qaydalarla tənzimlənən bir məsələdir. İnandığım bundan ibarətdir ki, bu proseslər bitdikdən sonra bu məsələlərin sistemləşdirilməsi və qərarların verilməsi, təbii ki, mümkün olacaq. Hazırkı vəziyyətdə bu məsələ də gündəmdədir və növbəti mərhələlərdə, yəqin ki, müvafiq qərarlar veriləcək.

### Ənənəvi təhsilə qayıtmaq hazırda risklidir

- *Biz Qarabağ savaşında həm döyüş meydanında, həm siyasətdə qələbə qazandıq. Ancaq biz həm də koronavirus adlı gözəgörünməz bir düşmənlə də mübarizə aparırıq. Koronavirusun təhsilə mənfi təsiri göz qabağındadır. Biz təhsildə bu böhranı necə idarə edirik?*

- Bilirsiniz ki, bu, artıq mart ayından başlayan uzun bir bir prosesdir. Məktəblərdə ötən tədris ilində, mart aylarının sonlarında dərslər distant formatda keçirildi. Daha sonra sentyabrın 15-dən məktəblərin fəaliyyəti qismən bərpa olundu. Amma son 4-5 həftə, bir qədər də çox vaxt ərzində yoluxma sayları artır. Sayların rekord həddə çatmasını görürsünüz. Təkcə Bakı şəhərində deyil, həm də bölgələrdə, hətta ən kiçik kənd və qəsəbələrdə yoluxma hallarına tez-tez rast gəlinir.

Bildiyiniz kimi, biz hazırda böhranlı vəziyyətdən danışırıq. Təbii ki, böhranlı vəziyyətdə idarəetmənin özünəməxsus çətinlikləri var. Başa düşürük ki, müəllimlərimiz, tələbələrimiz, şagirdlərimiz, valideynlərimiz üçün situasiya elə də asan deyil. Amma inandığımız həmişə bundan ibarət olub ki, müəyyən vaxt ərzində birlikdə biz bu mərhələdən çıxa bilərik. Bilirsiniz ki, hazırda Təhsil Nazirliyi tərəfindən mütəmadi olaraq teledərslər davam etdirilir. Artıq 1 milyon 200 mindən artıq şagird, 120 mindən artıq müəllim elektron məktəb platformasına qoşulub. Bu saylar artır. Ancaq internetdə olan çətinliklər, bacarıqlarla bağlı olan çətinliklər mövcuddur. Ənənəvi təhsilə qayıtmaq, təbii ki, hazırda risklidir. Çünki insanların həyatı mənə görə ən vacib məsələdir. Bunu biz ictimaiyyətlə müzakirələrdə də görürük. Fürsətdən istifadə edib qeyd edim ki, bəzi təhsil müəssisələri və ya ayrı-ayrı mərkəzlər var ki, onlar bəzən ənənəvi təhsilə keçməyə cəhd göstərirlər. Təbii ki, nazirlik olaraq biz məsələni monitorinq edirik. Ancaq hətta valideynlərdən belə bizə şikayət daxil olur ki, üzbəüz dərslər hazırda risklidir. Ona görə də pandemiya ilə bağlı bu situasiya imkan verərsə, müvafiq qurumlarla razılaşdırılmış şəkildə ənənəvi təhsilin bərpa edilməsi Təhsil Nazirliyi üçün də arzuedilən nəticədir. Amma bu, insanların, müəllimlərin, şagirdlərimizin sağlamlığına və onların ailə üzvlərinə, eyni zamanda digər insanlara yoluxma ilə nəticələnə bilər deyə hazırda bunu etmirik. Mən bunu bir daha vurğulamaq istərdim. O ki qaldı ənənəvi və ya distant təhsilə, mən yenə də deyirəm ki, bu sualı düzgün qoymuruq. Əlbəttə, ənənəvi təhsil yaxşıdır. Bu, birmənalı olaraq belədir. Məqsəd deyil ki, biz distant təhsilə keçək. Sadəcə verilmiş şəraitdə distant və teledərslər mümkün həll yollarıdır. Biz maksimal olaraq bu vasitələri şagirdlərimizə çatdırmağa çalışırıq. Yenə də deyirəm ki, Bakı şəhərində bizim ölçmələr onu göstərir ki, 75-80 faizə qədər, bəzi məktəblərdə 100 faizə qədər, bəzi yerlərdə 50 faiz problemli yerlər görürük. Çünki elektron sistem şagirdin nə vaxt dərsə girdiyini, həmin sistemdən istifadə etməyini monitorda görməyə imkan verir. Amma Bakı, Sumqayıtda təxminən 75 faiz şagirdin elektron dərslərdən yararlandığını görürük, digər şagirdlərimizin teledərslərdən yararlandığına inanırıq.

Ümumilikdə situasiyanı hələlik izləyirik. Mənə görə proses bitdikdən sonra biz hansısa qiymət verə, hansısa monitorinq aparıb müəyyən müdaxilələr hazırlaya bilərik. Bu barədə danışmaq hələlik tezdir. Bilirəm ki, insanları düşündürən suallardan biri də tətildir. Bildiyiniz kimi, 2 həftəlik tətil elan edilmişdir. Ona görə ənənəvi tətil dövründəki dərslər həm teledərslər, həm onlayn formatda davam etdiriləcək. Hər bir vətəndaş əlindən gələni etməlidir ki, böhranlı vəziyyəti yaxşı və səmərəli idarə edək və postpandeniya dövründə artıq mövcud böşluqları düzgün qiymətləndirib daha sonra müxtəlif düzgün alətlərdən - yay proqramları, şənbə dərsləri və s. başqa formatlarda biz şagirdlərimizə kömək edəcəyik ki, itirilən və yaxud yaranmış boşluqları doldura bilək.

- *Təbii ki, bu mərhələdə müəyyən axsamalar və ya geriləmələr olacaq. Onları sonradan sığortalamaq, boşluqları doldurmaq üçün Təhsil Nazirliyi artıq bununla bağlı düşünür?*

- Bəli, bu barədə düşünürük. Yenə də onu deyirəm ki, situasiyanı düzgün başa düşməliyik. Düz başa düşmək üçün isə situasiya bitməlidir. Çünki biz növbəti 2-4 həftədə nələr olacağını bilmirik. Amma mən yenə də fürsətdən istifadə edib ictimaiyyətə üzümü tuturam ki, biz anbaan təbii ki, indi çox qürurlu anlar, sevincli anlar yaşayırıq, amma eyni zamanda unutmamalıyıq ki, ikinci, belə deyək, düşmənimiz də var. Ona qarşı da mübarizədə Vətən müharibəsində göstərdiyimiz həmrəyliyi, birliyi göstərib ona qalib gələ bilərik. Bunun başqa yolu yoxdur.

### Bu semestr 10 mindən artıq tələbənin maliyyəsini ödəyəcəyik

- *Emin müəllim, cənab Prezidentin sərəncamı ilə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqlarının ödənilməsi ilə bağlı müvafiq işlər görülür. Tədris ilinin birinci semestrində artıq tələbələr bu imkandan istifadə ediblər. Bu proseslə bağlı vəziyyət nə yerdədir?*

- Bu proses davam edir. İnternetlə bağlı müəyyən məhdudiyyətlər olduğuna görə bu məsələdə bir qədər ləngimələr var idi. Mən iki məsələni xüsusi qeyd etmək istəyirəm. Artıq 10 mindən artıq tələbənin təhsil haqqı ilə bağlı müraciəti qeydə alınıb və təsdiqlənib, bu həftə onlara bu barədə aidiyyəti üzrə təsdiq mesajları göndəriləcək. Bizim hələ də imkanımız var ki, həmin qrupa düşən insanların, xüsusilə birinci kursda təhsil alan və həmin meyarlara cavab verən tələbələrin təhsil haqlarını ödəyək. Onlar *e-telebe.edu.az* saytı vasitəsilə qeydiyyatdan keçməlidirlər. Ola bilər, birinci kurs tələbələri bu barədə məlumatsızdırlar. Bu qruplara ailələri ünvanlı sosial yardım alan, hər iki valideyni əlil, valideynləri işləməyən ailələrdən olan tələbələr orta ixtisas və ya ali təhsil alanlar, peşə təhsili müəssisələrində oxuyanlar fərqi yoxdur, həmin sistemə müraciət etməklə onların təhsil haqları ölkə başçısının tapşırığına müvafiq olaraq Təhsil Nazirliyi tərəfindən ödənilə bilər. Bunun üçün zəruri şərt onların sistemə müraciət etməsidir. Biz dekabr ayına kimi bu prosesi davam etdiririk. Yəni ali təhsil müəssisələri ilə sıx işləyirik. Ötən semestr təxminən 15 min tələbənin təhsil haqqı ödənilib. Bu semestr 10 mindən artıq tələbənin maliyyəsini ödəyəcəyik və gözləyirik ki, digər insanlar da müraciət etsinlər.

- *Təşəkkür edirik və Sizə uğurlar arzulayırıq. Çox sağ olun ki, studiyamıza gəlib suallarımızı cavablandırdınız.*

- Sağ olun, mən də bir daha sizi və xalqımızı böyük Qələbə münasibətilə təbrik edirəm.

**Hazırda Təhsil Nazirliyi tərəfindən mütəmadi olaraq teledərslər davam etdirilir. Artıq 1 milyon 200 mindən artıq şagird, 120 mindən artıq müəllim elektron məktəb platformasına qoşulub. Bu saylar artır. Ancaq internetdə olan çətinliklər, bacarıqlarla bağlı olan çətinliklər mövcuddur. Ənənəvi təhsilə qayıtmaq, təbii ki, hazırda risklidir. Çünki insanların həyatı mənə görə ən vacib məsələdir.**

**Amma mən yenə də fürsətdən istifadə edib ictimaiyyətə üzümü tuturam ki, biz anbaan təbii ki, indi çox qürurlu anlar, sevincli anlar yaşayırıq, amma eyni zamanda unutmamalıyıq ki, ikinci, belə deyək, düşmənimiz də var. Ona qarşı da mübarizədə Vətən müharibəsində göstərdiyimiz həmrəyliyi, birliyi göstərib ona qalib gələ bilərik. Bunun başqa yolu yoxdur.**

# VƏTƏN müharibəsinin QƏHRƏMAN müəllimləri

Ruhiyyə DAŞSALAHLI

Vətən müharibəsinin ən pis üzünü Gəncə gördü. Gəncə şəhəri qəhrəman oğulları ilə yanaşı, uşaqlarını, şəhərin məktəbləri şagirdlərini - Nigarını, Orxanını, Məryəmini, Arturunu itirdi. Şəhər təhsilinin növbəti itkisi MÜƏLLİMlərdən oldu.

## Gəncənin şəhid müəllimləri

### Məktəbimizdə Rabil İsmayılov adına sinif olacaq



Rabil İsmayılov Gəncə şəhər Mikayıl Müşfiq adına 14 nömrəli tam orta məktəbin müəllimi idi. 2017-ci ildə müəllimlərin işə qəbulu imtahanlarında 55 bal toplayaraq işə qəbul olunmuşdu. Məktəbin direktoru Gülşən Həsənova 2018-ci ildə məktəbə direktor təyin ediləndən sonra tanıdığı və istedadının dərhal fərqinə vardığı Rabil müəllim haqqında xatirələrindən danışdı: "Bu məktəbin məzunuyam. Direktor təyin olunandan sonra müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak edən və məktəbimizdə müəllim işləmək hüququ qazanan müəllimlərlə ayrıca görüşdüm. Rabil müəllimin istedadını elə ilk görüşümüzdə anladım. Onu fərqləndirən cəhətlər çox idi. Qısa müddət sonra yanılmadığımı gördüm. Özü istedadlı olmaqla yanaşı, həm də yaxşı müəllim idi. Yetirmələri də özü kimi fərqlənirdi. Etiraf edim ki, riyaziyyat fənni üzrə məktəbimizin nəticələri həmişə aşağı olub. Elə mən oxuduğum dövrdə də şagirdlərimiz daha çox humanitar fənlərə meyil göstərirdilər. Ancaq Rabil müəllimin fəaliyyəti tezliklə bəhrəsini verdi. 2019-cu ildə həm də Rabil İsmayılovun işinin nəticəsi olaraq 11A sinfinin 21 şagirdindən 19-u ali məktəbə daxil oldu. Rabil müəllimi "Riyaziyyatın atası" sayır və bunu özünə də deyirdim. Bu il riyaziyyat üzrə uşaqları olimpiadaya hazırlayacağına, hətta mütləq bir medal gətirəcəklərinə söz vermişdi. Medal gətirdi, amma qəhrəmanlıq medalı oldu bu".

"Dərsdə heç vaxt oturmur, ya partaların arasında, ya da əlində təbaşirlə lövhənin önündə olurdu" - deyən G.Həsənovanın sözlərinə görə, bu il məktəbin qalib olduğu qrant layihəsinin müəllifi də məhz R.İsmayılov olub.G.Həsənova bu itkinin məktəb kollektivi, xüsusən Rabil müəllimin şagirdlərində dərin iz buraxdığını da vurğulayıb: "Şagirdlər çox təsirləndi onun şəhadət xəbərindən. Xüsusən 7A sinfinin şagirdləri özlərinə gələ bilmirlər. Onunla bağlı paylaşımlar edib, dəftərlərində Rabil müəllimin qeydlərini xatirə olaraq saxlayacaqlarını yazıblar. Siniflərə qəhrəman müəllimlərimizin adlarını verəcəyik. Rabil müəllimin adını da sevimlisi 7 A sinfinə verməyi düşünürük. Tədris ili başlayanda məktəbimizdə Rabil İsmayılov adına bir sinif olacaq. Onun xatirəsi hər zaman bizimlə qalacaq".

Məktəb direktoru Kəlbəcər rayonundan olan Azərbaycan dili və ədəbiyyat müəllimi Vüsal müəllimlə aralarında keçən bir yazışmanı da xatırlayıb: "Vüsal müəllim bizim Rabil müəllim döyüşlərə qatılanda onunla hal-əhval tutub. Ona "harda görüşək" - yazıb. Rabil müəllim də yazıb ki, Kəlbəcərdə. Vüsal müəllim ona Kəlbəcərin cənnət olduğunu deyəndə Rabil müəllim ona yazıb: "Onda cənnətdə görüşərik". Bu gün onun cənnətdə olduğunu nəzərə alsaq, düşünürəm ki, təsadüfən də olsa, o, məhz məkanını söyləyib həmkarına".

### Riyaziyyatçı Vidadi müəllim hər kəsin nəzərində həm də bir qəhrəmandır



Vidadi İsrafilov da Gəncə sakini idi. Ancaq onun yolunu Gəncəyə salan tale idi. Əslində, Daşkəsənin Gurbulaq kəndində doğulub, elə orada da böyümüşdü. Əlinə çanta alıb ilk dəfə parta arxasında oturduğu Gürbulaq kənd tam orta məktəbinin müəllimi idi. Gəncəyə ali təhsil almaq üçün 2005-ci ildə getdi. Gəncə Dövlət Universitetinin riyaziyyat-informatika fakültəsində təhsil alandan sonra təyinatla kəndinə müəllim olaraq qayıtdı. Ancaq sonrakı illərdə oğlu Ataxanın kəllədaxili təzyiqi onları yüksəklikdə yerləşən Gurbulaqdan dəniz səviyyəsindən aşağıya - Gəncə şəhərinə enməyə məcbur etdi. Beləliklə, Gəncə şəhər sakini oldular.

Vidadi müəllim təsərrüfatla da məşğul olurdu. Artıraraq sayını 4 -ə çatdırdığı atları var. Bu il kartof əkib 1 tondan artıq məhsul götürmüşdü. Torpağı əkib-becərməyi, yaxşı məhsul götürməyi və onu paylaşmağı sevirdi. Sadəcə əkib-becərməyimi? Vidadi müəllim onu qorumaq, ərazi bütövlüyünü təmin etmək üçün canından keçəcək qədər çox sevdi torpağını. Vətən müharibəsi başlayan kimi riyaziyyat müəllimi Vidadi İsrafilov hərbi komissarlığa baş vurdu və sentyabrın 29-da "öncə Vətən" deyib arxasında qoyduğu 5 və 6 yaşında olan iki balasını da öncə ata-anasına, sonra dövlətinə həvalə etdi. Atası və işlədiyi məktəbin direktoru olan Vaqif müəllimin sözlərinə görə, onlar Vidadinin getdiyini yazıb qoyduğu məktubdan öyrəniblər: "Həyat yoldaşı gətirdi məktubunu. Vətənin müdafiəsinə getdiyini, 2 balasını böyütməkdə yoldaşına kömək etməyimizi tapşırırdı. Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edirdi. Döyüşə-döyüşə Şuşaya qədər gedib çıxdı. Noyabrın 7-də zəng etmişdi. Şuşada qələbə xəbərini oğlumdan aldım. Mənə Xankəndi istiqamətində növbəti əməliyyata hazırlaşdıqlarını da dedi".

Oğlu ilə bundan sonra danışa bilməyən ata onunla bir də noyabrın 11-də görüşür. Ancaq bu dəfə cansız bədəni ilə. Atası şəhid oğlunu Füzulidəki hospitaldan götürüb. Qalib ordunun qəhrəman döyüşçüsünün qəlpələrdən deşik-deşik olmuş bədənini bağrına basıb: "Oğlumu götürməyə gedəndə mənə həlak olduğu döyüş vəziyyəti ilə bağlı da məlumat verdilər. Dediklərinə görə, müharibənin bitməsinə bir neçə saat qalmış şəhid olub. Onunla bərabər öndə gedən 4 silahdaşı ilə bərabər. Bədəni qəlpələrlə dolu idi. Onu evə gətirəndə axşam olmuşdu. Həmin gün dəfn edə bilmədik. Gecəni bizimlə qaldı. Doyunca vidalaşdıq. Səhərisi dəfn etdik. Oğlum pəhləvan kimi idi. Məktəbdə, kənddə, yaşadığı yerdə hörməti vardı. Hamı ona ağsaqqal kimi yanaşır, məsləhət alırdılar. Həm ağıllı, həm də qoçaq idi. Artıq hər kəsin nəzərində həm də bir qəhrəmandır. Bunu indi balaları da bilir".

### Rəşad müəllimin şagirdlərinə bayraq əmanəti



Gəncənin qürur mənbəyi olan şəhidlərindən biri də Rəşad müəllim oldu. Həyat yolunu cızarkən silah yox, qələm götürməyə üstünlük vermişdi. Qələmlə ondan əvvəl yazılmış tarixi yaşatmaq, anlatmaq, gələcək nəslə ötürməyi hədəfləmişdi. Sadəcə müəllim olmaq istəmişdi. Bu istəklə də orta məktəbi bitirib ali məktəbə - Gəncə Dövlət Universitetinə daxil olmuşdu. Sonra daha yaxşı müəllim olmaq istədi. Bu həvəslə GDU-da magistratura təhsili aldı. İnsan yetişdirmək, insanın şəxsiyyətə çevrilməsi prosesində fəal rol oynamaq idi niyyəti. Hazırlaşıb müəllimlərin işə qəbulu üzrə müsabiqəyə qatıldı və 2018-ci ildə 51 bal toplayaraq yaxşı müəllim olacağına dair bir şübhə yeri qoymadı. Gəncə şəhəri M.Ş.Vazeh adına 16 nömrəli tam orta məktəbi seçdi. Çox keçmədi ki, məktəbin sevimli tarix müəllimi oldu Rəşad Məmmədov. Onun müəllim ömrü 2 il - Azərbaycan Ordusunun Qarabağda əks-hücum əməliyyatlarının başladığı günədək sürdü.

#### "Səndən qabağa düşdüm, mən gedirəm"

Əməliyyatların başlanması ilə əli qələmli Rəşad müəllim dönüb oldu əli silahlı əsgər. Tarixin səhvini qələmlə düzəldə bilməyəcəyini anladı hər halda. Əlindəki qələmlə son 30 illik tarixin üstündən qara bir xətt çəkib silahla yeni tarix yazmağa qərar verdi. Həmin həlledici qərarı verərkən yanında dostu, həmkarı Arzu müəllim vardı.

Fizika müəllimi Arzu Qurbanovla yolları 16 nömrəli məktəbin "Müəllimlər otağı"nın qapısı ağzında kəsişmişdi. Salamlaşıb dostlaşmışdılar: "Qapıda qarşılaşdım onunla. Mən "Müəllimlər otağı"nın qarşısında dayanmışdım. Rəşad müəllim gəldi. Salamlaşdı. Sonra tanış olduq. Bir də onda baxdıq ki, dostlaşmışıq da. Bəzən soruşurduq bizi birləşdirən nədir deyə. Mən ondan 11 yaş böyüyəm. Amma böyüklüyüm bir işə yaramadı. Ondan qabağa düşə bilmədim. Mən şəhid olacaqdım, o oldu".

Arzu müəllim danışır ki, bir yerdə hərbi komissarlığa gedib Vətən müharibəsində iştirak etmək arzularını bildiriblər. Hər gün Ordudan çağırış gözləyiblər: "Pandemiya səbəbindən məktəbdə növbətçi olurduq. Növbətçilik sırasında bir yerdə olduğumuz vaxtlar yaranırdı. Hər dəfə bir yerə gələndə narahatlıqla "Nə oldu, bizi niyə çağırmırlar", - deyib gileylənirdi. Hər dəfə ona "Öncə mən gedəcəyəm, səndən böyüyəm", - deyirdim.Oktyabrın 3-də axşam zəng elədi ki, səndən qabağa düşdüm, mən gedirəm. Oktyabrın 31-dək Gəncədəydi, təlim keçirdilər. Sonrakı zəngində "Evdə deyiləm" dedi və mən anladım ki, artıq təlimləri bitib və Gəncədən çıxıb. Sonuncu dəfə onunla noyabrın 3-də danışdıq. Ondan sonra əlaqəmiz kəsildi".

Xeyli vaxtdı zəng etməməyinə baxmayaraq, Arzu müəllim qələbə gününədək narahat olmayıb: "İmkan olanda o zəng edirdi. Onun zəng etməməsi də xeyli vaxt məni narahat eləmədi. Hesab edirdim ki, imkan olmur. Ancaq Şuşa alınandan sonra narahat olmağa başladım. Şuşanın alınması xəbərinin sevincini bizimlə mütləq bölüşəcəyini düşünürdüm. Amma gözlədiyim zəng gəlmədi. Onda narahat olmağa başladım. Nəhayət, ondan xəbər aldıq. Zəngi yox, özü gəldi. Heç cür təsəllimiz yoxdu. Qızıldan qiymətli bir insanı, yaxın dostumu, hörmətli müəllim yoldaşımı itirdim".

#### Vətənpərvər, millətinə, dövlətinə bağlı idi

Məktəbin direktoru Elnurə Yusifova rəhbərlik etdiyi təhsil müəssisəsinin itkisinin böyük olduğunu deyir: "Rəşad müəllim məktəbimizdə 2018-ci ildən çalışırdı. Ondan əvvəl 5 il hüquq-mühafizə orqanlarında işləmişdi. Müəllim işlədiyi bu iki ildə şagirdlər, valideynlər, müəllimlər arasında böyük hörmət qazanmışdı. Savadlı, bacarıqlı müəllim idi. Müsbət keyfiyyətləri olan bir insan kimi tanınırdı. Vətənpərvər, millətinə, dövlətinə bağlı insan idi. Azərbaycana layiq vətəndaş idi. Noyabrın 6-na qədər onunla əlaqə olub. Bizdə olan məlumata görə, Şuşa şəhəri uğrunda gedən döyüşlərdə şəhid olub".

Məktəb direktoru şəhidin dəfnində onun əsgər yoldaşı ilə də görüşüb: "Son ana qədər onun yanında olan əsgər yoldaşı ilə tanış olduq. O özü bizə yaxınlaşaraq, Rəşad müəllim məktəbə bir əmanət buraxdığını söylədi. Dedi ki, Rəşad müəllim ona bir bayraq əmanət edib. Deyib ki, dərs başlayanda o bayrağı gətirib məktəbə, onun şagirdlərinə versin. Səbirsizliklə tədrisin başlayacağı o günü gözləyirik. Gözləyirik ki, müəllimimizin əmanət etdiyi həmin bayrağı əsgər yoldaşı məktəbimizə gətirsin".




# VƏTƏN müharibəsinin QƏHRƏMAN müəllimləri

## Lerikdə qəhrəman müəllimini gözləyən məktəb



Anasının yeganə oğlu, 3 bacının bir qardaşı Elgün də bu il müəllim adı qazanmışdı. İlk dəfə sinfə girəcəkdi. Müəllimlərin işə qəbulu müsabiqəsinin test imtahanı mərhələsində topladığı 52 balla Lerik rayon Sors kənd ümumi orta məktəbində dərs demək hüququ əldə etmişdi. Şagirdlərinə tarixdə qalanlardan danışacaqdı Elgün Vasif oğlu Quliyev. Ancaq özü tarixə çevrildi. Müasir tariximizin şanlı səhifələrindən birini də məhz o yazdı. Müharibənin bitməsinə saatlar qala şəhid olan müəllimlərdən biri oldu.

### "Tarix müəllimi ola bilməsəm də, tarix yazdım bəlkə"

Şamaxı rayon Göylər kənd sakini idi. 7-ci sinfə qədər burda oxumuşdu. Sonra İsmayıllıda və Şəkidə dini təhsil almışdı. "Qurani Kərim"i əzbərləmişdi. Ali məktəbi bir neçə il idi bitirmişdi. Bu ildən müəllimliyə başlayacaqdı. Ucqar kənd məktəbində dərs demək ən böyük arzusu idi. Şamaxı rayon Göylər kənd 2 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi olan anası Qənirə Quliyeva deyir ki, sənədlərini seçdiyi məktəbə o təqdim edib: "Bizə xəbər vermədən hərbi komissarlığa müraciət edib. Oktyabrın 10-da bildirildi ki, qəbul olunduğu məktəbdə qeydiyyatdan keçməliyik. Elgün cəbhədə olduğu üçün sənədlərini məktəbə mən apardım. Qayıdanda zəng etdi. Məktəbini soruşdu. Dedim ki, tam istədiyin kimi bir məktəbdə dərs deyəcəksən. Çox sevindi. Dedi ki, qalın paltar da alıb. Çox həvəsliydi. Ucqar kənddə müəllimlik edəcəkdi. Ancaq onu da dedi ki, tarix müəllimi ola bilməsəm də, tarix yazdım bəlkə".

Elgün Vasif oğlu elə özü dediyi kimi, tarix yazdı. Vətən uğrunda, torpaqlarımız uğrunda döyüşərək noyabrın 9-da, müharibənin bitməsinə bir neçə saat qalmış şəhid oldu. Müəllimlik arzusunu vətən sevdasına fəda etdi. Çünki vətən hər şeydən öndə gəlir. Qənirə xanım deyir ki, ondan videolar qalıb. Hər yerdə Elgün Qarabağdan, torpaqları uğrunda gözlənilən və onun da qatılacağı müharibədən danışır.

Sənədləri gedən məktəbə özü gedəmmədi. Gedib çıxa bilsəydi, bəlkə neçə-neçə məktəbliyə tarixi, tarix müəllimliyini, ya da sadəcə müəllimliyi sevdirəcəkdi. Ancaq o da həqiqətdir ki, getməsə də, görməsə də, sinfə girib dərs deməsə də, artıq həmin məktəb onun məktəbidir. Məktəbin direktoru Cəlil müəllim də deyir ki, Sors kənd ümumi orta məktəbinin kollektivi Elgünlə fəxr edir, dərs demək üçün onların məktəbini seçdiyi üçün qürur duyurlar.

Bu da bir həqiqətdir: Elgün müəllimliyi, ya da tarixi sevdirə bilmədi bəlkə, amma dərs deyə bilmədiyi şagirdlərinə vətəni sevdirdi.

### Sən YAŞAYACAQsan, Şəhidim!

Beləliklə, analar öz balasını, vətən oğlunu, məktəblər müəllimlərini itirdi. Torpaqlarımız qəhrəman övladlarını bağrına basdı səssiz-səmirsiz, qeydsiz-şərtsiz. Böyüməkdə olan nəsli millətinin tarixi keçmişi ilə bəsləyəcəkdilər, olmadı. Əvəzində tarixin qürurlu səhifələrində qanla yazılan 5 hərfli söz, dağa dönən ürəklərə zirvə oldu hər biri: Şəhidlik zirvəsinin ŞƏHİD müəllimləri! Yeriniz cənnət, ruhunuz şad olsun. Qıpqırmızı qanınızla yazılmağında iştirak etdiyiniz ən müasir Azərbaycan tarixinin hər səhifəsində, hər sətrində məhz SİZ qalacaqsınız!

Əmanətiniz olan o Bayrağı ötürəcəyimiz məktəblilər həmişə olacaq. O bayraq hər zaman dalğalanacaq. Şagirdlərinizə ötürdüyünüz üçrəngli bayraq dalğalandıqca, YAŞAYACAQsınız SİZ də!

**Ruhiyyə DAŞSALAHLI**

## Şuşada bayrağımızı görməyi arzulayan şəhid məktəb direktoru

Dövlətçilik tariximizə qələbəli, zəfərli Vətən müharibəsi yazıldı. Bu, möhtəşəm milli qalibiyyətdir. Çoxdan gözlədiyimiz, arzusunda olduğumuz zəfərdir. Qələbələr qansız-qadasız, itkisiz qazanılmır əlbəttə. Hər yeni mübarizə yeni qəhrəmanları üzə çıxarır. Sentyabrın 27-də torpaqlarımızın azadlığı uğrunda başlayan haqq döyüşümüzdə şanlı qələbəni istər ön cəbhə, istərsə də arxa cəhbə cəsurları hesabına əldə etdik. Qəhrəmanlıq, şəhidlik zirvəsini fəth edənlər sırasına təhsil camiəsinin üzvlərinin də adı yazıldı. Ağstafa rayon 1 nömrəli tam orta məktəbin direktoru Elvin İmaməliyev qələbədə payı olan müqəddəs şəhidlər cərgəsinə qatıldı.



### Qələbə günü doğulan qəhrəman

Elvin İmaməliyev 1989-cu ilin mayın 9-u Ağstafa rayon Qırılı kəndində ziyalı ailədə dünyaya gəlib. Orta təhsilini Qırılı kəndində bitirdikdən sonra Azərbaycan Dillər Universitetinin xarici dil müəllimliyi (fransız dili) ixtisası üzrə təhsil alıb. 2012-ci ildə müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak edərək elə doğulduğu kəndin məktəbində müəllim kimi fəaliyyətə başlayıb. 2019-cu ildə direktorların işə qəbulu üzrə müsabiqədə iştirak etmiş və yüksək bal toplayaraq Ağstafa şəhəri 1 nömrəli tam orta məktəbinə direktor təyin edilib.

### Tovuz döyüşləri zamanı könüllü olaraq orduya yazılıb

Elvin İmaməliyev 2020-ci il iyul ayında baş verən Tovuz döyüşləri zamanı könüllü olaraq orduya yazılıbmış. Sentyabr ayında müharibə başlayanda ön cəbhəyə yollanıb. Şuşa şəhərinin azadlığı uğrunda döyüşlərdə qəhrəmanlıqla vuruşub, şəhərin azadlığa qovuşmasının sevincini yaşayıb. Təəssüflər olsun ki, tam qələbəmizə cəmi 1 gün qalmış, noyabrın 9-da Şuşa şəhəri yaxınlığında, Qırmızı bazar qəsəbəsində ağır yaralanaraq şəhid olub.

### Son anında atasına zəng edib

Atası Elsevər İmaməliyevə noyabrın 8-dən 9-na keçən gecə 02:48-də zəng edərək "ata, mən yaxşıyam, narahat olmayın"- deyib. Elsevər dayı deyir ki, elə bu söhbət oğlumla vida danışığı oldu: "Bu zəng əksinə məni narahat etdi, tələsik danışdı. Bəlkə də yaralanıb zəng edibmiş. O, çox qayğıkeş idi. Övlad kimi, ailə başçısı kimi, insan kimi. Ən son anda da bizi düşünüb ki, heç olmasa xəbər çatdırsın, nigaran qalmayaq. Orduya könüllü yazıldığını da deməmişdi bizə".

Ailənin tək oğul övladı olub Elvin müəllim. "Babam, atam, mən də evin tək oğul övladı olduq. Elvin də mənim tək oğlan övladım oldu ailəmizdə. İki bacının tək qardaşı idi" - deyir şəhid atası. İndi Elvindən iki övlad - Təyyar (3 yaş) və Tunar (2 yaş) yadigar qaldı.

"Elvinə zarafatla deyirdim ki, sən bizim nəslin bu ənənəsini dəyişdin. İki oğlun var, çox şükür. Oğlumla fəxr edirəm, evimdə böyük qəhrəmanın varislərini, vətən keşikçilərini böyüdürəm".

### Qələbə xəbərini özü şagirdlərinə çatdıra bilmədi

"Elvin müəllimin dilindən tədbirlərdə, bizimlə gündəlik söhbətlərində həmişə vətənpərvərlik, torpaq sevgisi haqda fikirlər eşidirdik. Sanki belə olmalı idi, belə danışmalı idi. Təsəvvür edin, adi gündəlik danışığında, demək olar bu insan mütləq vətənlə bağlı, qəhrəmanlarımızla bağlı söhbətlər edirdi". Bu sözləri həmin məktəbin biologiya müəllimi Məryəm Kərimova deyir. O, danışır ki, Elvin müəllim rəhbərlik etdiyi 2 il müddətində məktəbdə vətənpərvərlik haqqında tədbirlərə xüsusi hazırlıq görərdi:

"Keçən il "Bayraq Günü" ilə bağlı tədbirin sonunda çıxışında ən böyük arzularından birinin də bayrağımızın Şuşada dalğalancağı günü görmək olduğunu demişdi. Onda heç özünün də, bizim də ağlımıza gəlməzdi ki, Şuşanın azadlığa qovuşmasında onun da payı olacaq. Əfsuslar olsun, qələbə xəbərini özü şagirdlərinə, məktəb kollektivinə çatdıra bilmədi. Hamımız Elvin müəllimin itkisinə çox kədərlənirik. O həm də bizim, şagirdlərimizin fəxridir. Məktəbin tarixində Elvin müəllimin adı əbədi yaşayacaq. Onu həmişə böyük ehtiramla yad edəcəyik".

### "Bizə həmişə deyirdi ki, döyüş təkcə səngərdə aparılmır"

11-ci sinif şagirdi İskəndər Yaqublu da şəhid direktorları ilə bağlı xatirəsini bölüşüb: "Elvin müəllim, xüsusilə oğlanlarla ayrıca söhbətlər aparardı. Bizə həmişə deyirdi ki, dərslərinizə yaxşı çalışın, savadlı, bilikli olun. Döyüş təkcə səngərdə aparılmır. Biz müharibə şəraitində yaşayırıq. Sizin təhsilli, ağıllı olmağınız da ölkəmiz adına güc deməkdir. Bizimlə həmişə dost kimi davranırdı. Vətəni sorğu-sualsız sevmək lazımdır deyirdi. Biz onun salamat qayıdıb gələcəyini, eynən belə səmimi döyüş xatirələrini bizimlə bölüşəcəyini gözləyirdik. İndi mən də, bütün məktəbimiz çox kədərli olsaq da, həm də Elvin müəllimlə fəxr edirik".

### Xeyriyyə işlərinə vəzifə yox, insanlıq borcu kimi baxırdı

Fəallığı və bacarığı ilə seçilən Elvin İmaməliyev həm də 2017-ci ildən YAP Ağstafa rayon təşkilatı Gənclər Birliyinin sədri vəzifəsində çalışıb. YAP Ağstafa rayon təşkilatının baş təlimatçısı Nadir Hüseynov həmkarı Elvin İmaməliyevlə bağlı xatirələrini bölüşüb. "Onun çalışqanlığına heyran qalırdım. Bunu Elvinə də dəfələrlə demişdim. Məktəbin vəzifə səlahiyyətləri, öhdəliyi ilə yanaşı, buradakı vəzifəsini də məsuliyyətlə yerinə yetirirdi".

Elvin İmaməliyev pandemiya şəraitində çətinlik çəkən, küçəyə çıxma məhdudiyyəti olan ahılları, yaşlı insanları axtarıb tapırmış. Onlara şəxsən bazarlıq edirmiş, çörək, dərman alırmış. Nadir Hüseynov deyir ki, xeyriyyə işlərini, yardımı iş, peşə öhdəliyi olduğu üçün yox, insanlıq vəzifəsi kimi yerinə yetirirdi. Elə olurdu ki, küçədə, kütləvi yerlərdə insanlara maska paylayırdı.

"Rayonumuz belə işıqlı, insansevər, ziyalı gənci itirdi. Onu heç vaxt unuda bilmərik. Mən fəxr edirəm, qürur duyuram ki, Elvin müəllim kimi dəyərli insanla həmsöhbət olmuşam, birlikdə çalışmışıq".

Elvin İmaməliyev arzuladığı kimi bayrağımızın Şuşa qalasına sancıldığını görməsə də, onun döyüşçü dostları, Müzəffər Ordumuzun sayəsində üçrəngli bayrağımız bütün torpaqlarımızda dalğalanır. İndi torpaqlarımızın azadlığı uğrunda canını əsirgəməyən bütün şəhidlərimizin ruhu şaddır. Allah qələbə sevincini xalqımıza bəxş edən şəhidlərimizə rəhmət eləsin!

**Gülnarə İLHAM**

# “QARABAĞın məşhur müəllimləri”




## Yusif Vəzir Çəmənzəminli

Yusif Vəzir Çəmənzəminli 1887-ci ildə Şuşa şəhərində anadan olub. “Dağ başında yazı-yayı yaşıllığa, payızı-qışı dumana və qara bürünmüş bir şəhər təsəvvür ediniz. Bu mənim şəhərimdir...Şəhərin hər nöqtəsi tarix söyləyir...” deyən yazıçı-publisist, maarifpərvər ziyalı, dövlət adamı və ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədəki ilk səfiri Yusif Vəzir Çəmənzəminli üçün Şuşa şərəfli həyatının təməli, başlanğıcı idi.

Yusif Vəzirin zəngin fəaliyyətində müəllimlik əsas yer tutub. O, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) şərqşünaslıq və pedaqoji fakültəsində, sonralar isə Pedaqoji, Tibb və Neft institutlarında Azərbaycan və rus dillərindən dərs deyib. 1938-ci ildə Özbəkistanın Xarəzm Vilayət Pedaqoji İnstitutunda rus dili üzrə baş müəllim işləyib, eyni zamanda institut kitabxanasına müdir təyin olunub. Yusif Vəzir təhsil və tərbiyənin milli inkişafda həlledici rolunu vurğulayaraq yazırdı ki, məktəbsiz millət rişəsiz ağac kimidir; diriliyi üçün lazım olan qüvvəsi olmayıb, quruyub candan düşər.

## Nəcəf bəy Vəzirov

Nəcəf bəy Vəzirov 1854-cü ildə Şuşa şəhərində anadan olub. Ədibin maarifçilik ideyalarına xidmət edən zəngin yaradıcılığı milli dramaturgiyamızın inkişafında mühüm yer tutur.

Nəcəf bəy bir müddət Bakı şəhər maarif şöbəsi rəisinin müavini işləyib və müəllimi Həsən bəy Zərdabi ilə birlikdə doğma xalqının maariflənməsi üçün yeni məktəblərin, müxtəlif tərbiyə ocaqlarının açılmasında yaxından iştirak edib. O, Bakıda Kənd təsərrüfatı texnikumunda müəllimlik edib.

Əsərlərinin qonorarını xeyriyyə cəmiyyətlərinə köçürən Nəcəf bəy deyirdi: “Bu, mənim prinsipimdir. Mən hələ vicdanımı itirməmişəm ki, xalqımın maariflənməsinə kömək edən yazılarımdan qazanc götürəm”.







## Bülbül

Murtuza Məşədi Rza oğlu Məmmədov 1897-ci ildə Şuşada anadan olub. Azərbaycan professional vokal sənətinin banisi, professor, ictimai xadim Bülbül böyük və gərgin yaradıcılıq yolu keçib.

Çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın musiqi mədəniyyəti tarixində silinməz izlər qoyan Bülbül 1931-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında (indiki Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyası) dərs deyib, 1940-cı ildən isə həmin təhsil ocağının professoru olub. O, milli oxuma sənətinin ən layiqli üsullarını rus və Avropa məktəbi ilə birləşdirərək yeni vokal məktəbi yaradıb. Bu məktəb nəinki Azərbaycanda, keçmiş SSRİ məkanında, həmçinin Yaxın və Orta Şərq ölkələrində də vokal sənəti sahəsində öz mühüm təsirini göstərib. Bülbülün bütün əmək fəaliyyəti vətəninə, xalqına, milli musiqi sənətinə fədakarlıqla xidmət etməyin ən bariz nümunəsidir. O, doğma dilinə böyük önəm verərək deyirdi: “Öz dilində elə oxumaq lazımdır ki, bu dili başa düşməyənlər də ondan zövq ala bilsinlər”.

# Hədəf gənc tədqiqatçı alimlərin yetişdirilməsidir

Oruc MUSTAFAYEV

Qlobal çağırışlar ali təhsil sistemində sürətli dəyişikliklərin aparılmasını zəruri edir. Yeni və həm də keyfiyyət dəyişikliklərinin əsasında isə ali təhsil sisteminin rəqabətliliyinin möhkəmləndirilməsi durur. Ali təhsildə rəqabətliliyin təmin olunması, ilk növbədə, universitetlərdə aparılan elmi tədqiqatların səviyyəsindən, yeni akademik mühitin yaradılmasından, gənc tədqiqatçılar nəslinin yetişdirilməsindən asılıdır. Bu hədəflərə çatmaqda 2018-ci ilin noyabrında Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" mühüm rol oynayır.

## Xaricdə doktorantura təhsili üzrə növbəti sənəd qəbuluna start verilir



Təhsil Nazirliyinin nəzdində "2019-2023 Dövlət Proqramı" İdarəetmə Qrupu "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində nüfuzlu xarici ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil almaq istəyən Azərbaycan Respublikası vətəndaşlarını 2021-ci il yaz semestri üçün sənəd qəbulunda iştirak etməyə dəvət edir. Proqram xaricdə doktorantura səviyyəsi üzrə təhsili üçün prioritet ixtisas istiqamətləri və ixtisasları üzrə doktoranturaya qəbul olmağa hazırlaşan və hazırda müvafiq sahələr üzrə doktorantura səviyyəsində təhsil alan namizədlər üçün nəzərdə tutulub. Proqram iştirakçılarının təhsilinin maliyyələşdirilməsi Dövlət Proqramının İdarəetmə Qrupu tərəfindən idarə olunur.

Qeyd edək ki, 2019-cu il noyabrın 13-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində "Xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil alacaq Azərbaycan Respublikası vətəndaşlarının seçim Qaydaları" təsdiq edilib. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş Dövlət Proqramı çərçivəsində xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil alacaq Azərbaycan vətəndaşlarının (proqram iştirakçıları) seçimi meyarlarını və prosedurlarını müəyyən edir. Proqram iştirakçıları bu Qaydalarla müəyyən edilmiş seçim meyarlarına uyğunluğun qiymətləndirilməsinin nəticələrinə görə, xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil almaq istəyən və ya təhsil alan Azərbaycan Respublikasının vətəndaşları (namizədlər) sırasından seçilirlər. Dövlət hesabına Azərbaycan Respublikasının ali təhsil müəssisələrində, elmi müəssisə və təşkilatlarda, Azərbaycan Milli Elmlər Akademiyasında doktorantura səviyyəsi üzrə təhsilin normativ müddətinin yarısından artıq müddətdə təhsil alan, doktorantura səviyyəsi üzrə təhsilini başa vurmuş, habelə Azərbaycan Respublikasının dövlət proqramları və beynəlxalq müqavilələri çərçivəsində xarici ölkələrin ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil almış şəxslər proqram iştirakçılarının seçilməsində namizəd qismində iştirak edə bilməzlər.

### Seçim meyarları

Proqram iştirakçılarının seçim meyarlarına görə namizədin xarici ölkənin ali təhsil müəssisəsində doktorantura səviyyəsi üzrə təhsil almaq istədiyi və ya təhsil aldığı ixtisas istiqaməti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu ildə müvafiq qərarı ilə müəyyən edilmiş "Azərbaycan Respublikası vətəndaşlarının xaricdə doktorantura səviyyəsi üzrə təhsili üçün prioritet ixtisas istiqamətləri və ixtisasları"na uyğun olmalıdır. Bundan başqa, namizədin xarici ali təhsil müəssisəsinə qəbul olunması, namizədin bakalavr və ya magistr ali təhsil dərəcəsinə malik olması, namizədin təhsil almaq istədiyi və ya təhsil aldığı xarici ali təhsil müəssisəsinin müəyyən edilən beynəlxalq reytinqlərin- "Times Higher Education (THE) World University Rankings" və "Academic Ranking of World Universities (Shanghai)" hər hansı birində cari təqvim ilindən əvvəlki təqvim ilinin nəticələrinə görə 500-cü yerdən aşağı olmayan sırada yer alması əsas şərtlərdəndir.

Azərbaycan Respublikası ali təhsil müəssisəsinin namizədin xarici ali təhsil müəssisəsində təhsili başa çatdıqdan sonra pedaqoji fəaliyyətə cəlb edilməsi üçün onunla əmək müqaviləsi bağlamağa razılığı olmalıdır. Yəni dövlət hesabına doktorantura təhsili alan namizəd gələcəkdə mütləq Azərbaycan ali təhsil müəssisələrində çalışmalıdır. Təhsil almaq istədiyi ixtisas üzrə namizədin elmi tədqiqat işlərini aparmaq bacarıqları, namizədin məntiqi mühakimə yürütmək bacarıqları, namizədin kommunikasiya bacarıqları, özünəinam və inandırma qabiliyyəti əsas müsahibə meyarları hesab edilir.

### Şəffaf seçim

Namizədin meyarlara uyğunluğu müvafiq qaydada təqdim etdiyi sənədlər əsasında Təhsil Nazirliyinin nəzdində Dövlət Proqramının İdarəetmə Qrupu tərəfindən qiymətləndirilir. Namizədin meyarlara uyğunluğu şəffaf üsullarla keçirilən müsahibə vasitəsilə qiymətləndiriləcək. Namizədlərlə müsahibələri Nazirlik tərəfindən yaradılan və ictimai əsaslarla fəaliyyət göstərən müsahibə komissiyaları aparacaq. Müsahibə komissiyalarının tərkibi 3 (üç) nəfərdən az olmamaqla Nazirliyin, Azərbaycan Respublikası Dövlət Neft Fondunun və namizədlərin ixtisas istiqamətlərinə uyğun sahədə dövlət siyasətini (tənzimləməni) həyata keçirən dövlət orqanlarının (qurumların) əməkdaşlarından formalaşdırılacaq. Müsahibə komissiyalarının tərkibinə namizədlərin ixtisas istiqamətlərinə uyğun sahə üzrə fəlsəfə doktoru (elmlər namizədi) dərəcəsi olan mütəxəssislər cəlb edilə bilərlər. Müsahibə komissiyalarına üzv olan nazirliyin əməkdaşları həmin komissiyalara sədrlik edəcək.

### Proqram iştirakçılarının xərcləri

Təhsil xərclərinə təhsil haqqı, xarici ali təhsil müəssisəsində qeydiyyat haqqı və proqram iştirakçısının təhsili ilə bağlı ödənilməsi xarici ali təhsil müəssisəsi tərəfindən tələb olunan xərclər aiddir. Proqram iştirakçılarının ailə üzvlərinin və digər qohumlarının xərclərinin maliyyələşdirilməsi həyata keçirilməyəcək. Viza və proqram iştirakçısının təhsil aldığı ölkədə qeydiyyat xərclərinə həmin ölkəyə vizanın rəsmiləşdirilməsinə görə tutulan rüsum, vizanın rəsmiləşdirilməsi ilə bağlı tibbi müayinə xərcləri və proqram iştirakçısının təhsil aldığı ölkədə qeydiyyata alınması üçün tutulan haqq aiddir. Aylıq yaşayış xərclərinə proqram iştirakçısının yataqxana və ya mənzil kirayəsi, qidalanma və digər xərclər aiddir. Proqram iştirakçısının aylıq yaşayış və tədris materialları ilə təminat xərclərinin məbləği və valyutası müvafiq Qaydaların əlavəsinə uyğun olaraq müəyyən edilir. Tibbi sığorta xərclərinə gəldikdə isə, proqram iştirakçısının təhsil aldığı ölkədə təhsil müddətindən artıq olmayan müddətə tibbi sığortası üçün ödənilən sığorta haqqı aiddir.Beynəlxalq nəqliyyat xərclərinə proqram iştirakçısının hər tədris ili üçün bir dəfə təhsil aldığı ölkəyə gedişi və Azərbaycan Respublikasına gəlişi üçün təyyarə ("ekonom-sinif" üzrə bir baqaj ödənilməklə) və ya beynəlxalq reyslər üzrə digər ictimai nəqliyyat vasitəsi biletinin qiyməti aiddir.

Sənəd qəbuluna dair digər məlumat və şərtlərlə *edu.gov.az/upload/file/ELAN/2020/11/DXT-2021-yaz-smestri-elan.pdf* səhifəsindən tanış olmaq olar. Əlavə suallar olduqda maraqlanan namizədlər e-poçt vasitəsilə *dpinfo@edu.gov.az* ünvanına müraciət edə bilərlər. Müraciətlər üçün son tarix 15 dekabr 2020-ci il olaraq müəyyən edilib.

## 5 azərbaycanlı gənc Rumıniyada təhsil almaq imkanı qazanıb

Rumıniyanın Milli Təhsil Nazirliyi ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlığa dair bağlanmış müqavilə əsasında 2020-2021-ci tədris ili üzrə Rumıniya ali təhsil müəssisələrində təhsil üçün keçirilmiş müsabiqə nəticəsində 5 Azərbaycan vətəndaşının namizədliyi müsbət qiymətləndirilib.

Qalib namizədlər Rumıniyanın "University of Agronomic Sciences and Veterinary Medicine of Bucharest", "Bucharest University of Economic Studies", "University of Bucharest", "University Oil Gas Ploieşti" və "Ovidius University of Constanta" ali təhsil müəssisələrində magistratura və doktorantura səviyyələrində biotexnologiya, təsviri incəsənət, neft-qaz çıxarılması, iqtisadiyyat və filologiya ixtisasları üzrə təhsil alacaqlar.

Qeyd edək ki, təqaüd proqramının tələblərinə uyğun olaraq, tələbələr 1 il müddətində ödənişsiz rumın dili hazırlığına cəlb olunacaq. Bununla yanaşı, onların təhsil haqqı, yataqxana xərci, aylıq təqaüd və tibbi sığorta xərcləri Rumıniya tərəfindən, yol xərci isə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən qarşılanacaq.

Müvafiq təqaüd proqramı barədə elan 5 mart 2020-ci il tarixində verilib.



Dünyada milyonlarla təhsilalanın öyrənmə imkanlarını məhdudlaşdıran COVID-19 bir sıra ölkələrin təhsil sistemləri üçün ciddi problemlərin, həm də innovativ axtarış və yanaşmaların əsasını qoyub. Görünən odur ki, sosial təcridin davam etdiyi müddətdə milli təhsil sistemləri onlayn tədris texnologiyalarından geniş faydalanmaqda israrlıdır. Ümumdünya İqtisadi Forumun növbəti tədqiqatı onlayn təhsilin gələcəyi perspektivində dünyanın ən güclü informasiya-kommunikasiya texnologiyalarını tədrisə gətirən Cənubi Koreya təcrübəsinə həsr olunub.




# Distant təhsilin gələcəyi

Oruc MUSTAFAYEV

> **Ümumdünya İqtisadi Forum:**
>
> **Onlayn təhsil infrastrukturunu dəstəkləyən siyasət aparmaq lazımdır**



## Onlayn təhsilə hamar keçid

Ümumdünya İqtisadi Forum qeyd edir ki, yeni pandemik situasiya Cənubi Koreya məktəblərini və universitetlərini onlayn təhsilə keçməyə məcbur etdi. Ölkənin onlayn təhsilə keçidi əsasən hamar idi və bunun səbəbi aydındır: Cənubi Koreya dünyanın ən yaxşı IT infrastrukturlarından birinə malikdir.

Pandemiyadan əvvəl ölkədə 4G mobil texnologiyasının əlçatanlığı 99% həyata keçirilmişdir, 5G isə tətbiqolunma mərhələsindədir. Bundan əlavə, ailələrin təxminən 75%-i kompüterlərlə, 99,5%-i isə internetlə təmin olunmuşdur. Təhsilin ölkədə milli prioritetliyi onlayn təhsilin asan həyata keçirilməsini, tələbə və müəllimlər tərəfindən bu rejimin geniş tanınmasını qaçılmaz edib.

Cənubi Koreya hökuməti bu çətin dövrlərdə təhsilin davamlılığını təmin etmək üçün bütün səylərini göstərib. Hökumət dövlət infrastrukturunu genişləndirməklə elektron təhsil platformalarının milyonlarla tələbəyə dəstək olmaq imkanlarını artırıb. Bundan əlavə, hazırda müəllimlərə eksperimental təlim və mentorluq proqramını təqdim etməklə pedaqoji potensialın artırılmasına kömək edir. Müəllimləri onlayn təhsil haqqında fikirlərini və məlumatlarını bölüşməyə sövq edən “10.000 representativ müəllimdən ibarət cəmiyyət”in yaradılması buna misal ola bilər. Hökumət eyni zamanda müvafiq rəhbər prinsipləri bölüşür və onlayn təhsil platformalarından istifadə etməkdə müəllimlərə, valideynlərə və şagirdlərə real vaxt rejimində dəstək verir, həmçinin rəqəmsal fərqlərin aradan qaldırılması üçün özəl sektorla işləyir. Bundan əlavə, o, icarəyə götürülən elektron qurğuları sıfır dəyərində minlərlə tələbəyə təqdim edir və bu siyasəti təhsil müəssisələrinə təklif edərək imkansız tələbələrin onlayn siniflərə daxil olması təmin olunur.

## Həm şagirdlərin, həm də müəllimlərin texniki bacarıqları çatışmır

Lakin Cənubi Koreyanın təsirli IT infrastrukturu və hökumətin onlayn təhsilin tətbiqinə dair aktiv addımları onlayn təhsilin geniş tanınmasına səbəb olmur. Məsələn, son sorğu tələbələrin onlayn təhsil təcrübəsindən çox aşağı səviyyədə məmnunluğunu göstərir, hətta tələbələrin 50%-i ikinci semestrdə tətil almaq imkanlarını nəzərdən keçirirdi. Bu tələbələr narazılıqlarının əsas səbəbləri kimi dərslərin keyfiyyətinin aşağı olmasını (37,9%) və təhsil haqqının qənaətbəxş (28%) olmadığını göstəriblər. Bundan əlavə, onlayn tədris mühitində səmərəli qarşılıqlı fəaliyyət göstərmək üçün həm şagirdlərin, həm də müəllimlərin texniki bacarıqları çatışmır. Bu, təəccüblü deyil, çünki həm tələbələr, həm də müəllimlər onlara distant təhsil mühitində qarşılıqlı əlaqənin necə qurulmalı olduğunun öyrədilmədiyini bildiriblər. Bundan əlavə, onlayn təhsil üçün standartlaşdırma siyasətinin olmaması məktəblər arasında əməliyyatların müxtəlifliyinə səbəb olub ki, bu da təhsil fərqlərini daha da artırır.

Beləliklə, onlayn platforma və texnologiyalar əyani dərslərdə olduğu kimi, təhsil məzmununu səmərəli şəkildə təqdim etməyə hazır deyil. Mühəndislik ixtisaslı ali məktəblərdə işlər daha da pisləşir; müxtəlif universitetlərin mühəndislik fakültələrinin tələbələri və müəllimlər arasında keçirilmiş sorğuda onların 33%-i dərslərin səmərəsiz olduğunu bildirib. Rəyi soruşulanların yalnız 5%-i dərslərdən məmnun qaldığını ifadə edib. Elm və texnika üzrə professorların 42%-i qeyri-məmnun olduğunu, yalnız 12%-i razılığını ifadə edib. Bu məlumatlar göstərir ki, bəzi dərslərin azad rejimdə keçirilməsi daha yaxşıdır. Virtual reallıq bir həll kimi təklif olunsa da, bu texnologiyanı praktikada həyata keçirmək bir müddət çəkəcək. Eyni şəkildə universitet rəhbərləri ali məktəblərdə islahatların həyata keçirilməsi və tədris məzmununun hazırlanmasında çətinliklər çəkirlər. Universitetlər maliyyə resurslarının idarə edilməsi, onlayn təhsilin həyata keçirilməsində dövlət dəstəyinin olmaması və texnologiyanın təhsilə tətbiqinə qarşı geniş yayılmış müqavimətin tənzimlənməsi kimi bəzi digər problemlərlə də üzləşirlər.

## Onlayn təhsil məhdudiyyətləri

Bundan başqa, aydın olur ki, universitet təhsilinin bəzi cəhətləri, o cümlədən tələbələrin həmyaşıdları ilə və professorlarla qarşılıqlı əlaqəsi, yataqxanada tələbə həyatı və tələbə oyunları məhdudlaşdırıla bilməz. Buna görə də universitetlər və kolleclər son vaxtlar dərslərin onlayn və offline keçirildiyi hibrid təhsili tətbiq etməyə başladılar. Bu yeni tendensiya bizə “hibrid” təhsilin yeni dövrünü təsəvvür etməyə imkan verir, burada onlayn (təmassız) təhsilin və oflayn (təmaslı) siniflərin ən yaxşı imkanları müəllimlərə və tələbələrə ən yaxşı tədris və tədris təcrübəsini təmin etmək üçün optimallaşdırılıb. Məsələn, internetin və onlayn tədris platformalarının potensialından istifadə edərək təhsil müəssisələri öz resurslarını milyonlarla tələbənin daha ucuz təhsilə girişini genişləndirmək üçün optimallaşdıra bilər. Kütləvi açıq onlayn kurslar (MOOC) və kompüter elmləri sahəsində onlayn magistratura kursları bu maraqlı imkanları ehtiva edir. Cənubi Koreya bu eranın başlanmasına çoxdan hazırlaşır; məsələn, Elm və İKT Nazirliyi universitetlərə yönəlmiş və ictimaiyyətə əlçatan olan K-MOOC tətbiq edib.

## Sistem dəyişikliklərinin zəruriliyi

Ümumdünya İqtisadi Foruma görə, belə bir ümumi fikir yaranır ki, təhsilin gələcəyi “hibridlik”dir. Lakin bu həyəcanlı gələcəyi həyata keçirmək üçün hökumətlər infrastruktur və əlçatan tədbirlərdən kənara çıxan təhsil islahatlarına diqqət yetirməlidirlər. Cənubi Koreyanın nümunəsi göstərir ki, təhsilin islahatı onlayn platformalar, süni intellekt və bulud hesablamaları daxil olmaqla, təhsil sistemlərinin ayrılmaz komponentləri olmağa yönəlmiş uzunmüddətli düşüncə və sistematik dəyişikliklər tələb edir. Hökumətlər müəllimlərin, professorların, tələbələrin və valideynlərin daha geniş miqyasda təlimə cəlb olunmasına da kömək etməlidirlər.

Bundan əlavə, tədris və təhsilimizi dəyişməliyik; mədəniyyətin dəyişməsi və professorlar, müəllimlər, tələbələr və valideynlər üçün stimulların yaradılması üzərində inadla çalışmalı, yeni eranın tələblərinə uyğun olaraq təhsilin biznes modellərini dəyişdirməliyik. Buna görə də biz hökumətlərə və maraqlı tərəflərə texnologiya üçün əlverişli şərait yaratmağa kömək edən siyasətə diqqət yetirməyi təklif edirik ki, bu da hazırkı onlayn tədris və tədris təcrübəsinin sinonimidir. Nəticədə bu, “hibrid” təhsillə bağlı sosial etimad və razılığın inkişafına səbəb ola bilər.

İkincisi, onlayn təhsil infrastrukturunu dəstəkləyən siyasət aparmaq lazımdır - məsələn, platforma, qurğular, sistemli və sosial dəyişikliklərə yönəlmiş siyasətlə yanaşı internetə qoşulmaq təmin olunmalıdır. Sonuncular onlayn təhsil sahəsində tələbələrin, müəllimlərin və məktəb heyətinin hazırlanması üçün tədris proqramlarının təşviqi, universitet sistemlərinin islahatı və müəssisələrin əməkdaşlığının təşviqi kimi imkanların genişləndirilməsini əhatə edir.

Nəhayət, maraqlı tərəflərlə məsləhətləşmələrdən sonra məsafədən təhsilin hüquqi əsasını yaratmağa və müxtəlif təhsil müəssisələrində onlayn təhsilin standartlaşdırılmasına kömək etməyə yönəlmiş qanunlar və qərarlar qəbul edilməlidir. Bu, müəllimlərlə tələbələr arasındakı anlaşılmazlığı minimuma endirməyə və təhsil boşluğunu aradan qaldırmağa kömək edəcək.

Sonda qeyd etmək lazımdır ki, Cənubi Koreyanın nümunəsi göstərir ki, təlimin səmərəli onlayn çatdırılmasını təmin etmək üçün lazımi infrastrukturun və ona girişin olması kifayət deyil.

Texnologiyalar və maraqlı tərəflərin iştirakı və qarşılıqlı əlaqəsi ilə geniş miqyaslı təlimlər sayəsində açılan yeni imkanlardan istifadə etmək üçün sistematik düşüncə və əhatəli islahatlara ehtiyac vardır.

# Məsafədən təhsildə yeni reallıqlar




**Ruhiyyə DAŞSALAHLI**

Alacaq bir dərs varsa, dünya bir məktəbdir. Bu deyim pandemiya dövründə öz təsdiqini tapdı. Məktəblərin funksiyasını yerinə yetirə bilməməsi alternativ öyrənmə vasitələrinin yenidən gündəmə gəlməsi ilə nəticələndi. Beləliklə, məktəblər 2020-2021-ci tədris ilinə hibrid təhsil formatında başlasa da, hazırda fəaliyyətini tamamilə virtual davam etdirir. Şagirdlərin öyrənmə imkanlarını artırmaq, dərslərə əlçatanlığını təmin etmək üçün müxtəlif yollar sınaqdan çıxarılır, ən uğurlu variantlar tətbiq edilir. "Mədəniyyət" və "ARB Günəş" kanallarında yayımlanan teledərslər, "Microsoft Teams" platformasında keçilən onlayn dərslər mövcud tələbatı ödəyir. Artıq sosial şəbəkələrdə də "Dərs vaxtı" var.

## "Mövcud emosional yüksəlişdən vətənpərvərlik ruhunun təbliğində istifadə etmək məqamıdır"

Ötən həftənin sonundan başlayaraq, teledərslər "You Tube" kanalına da yerləşdirilir. Odur ki, teleməkanda dərs vaxtını qaçıranlar həmin dərsi buradan da izləyə və öyrənə bilərlər. Üstəlik, bu həftədən hər fənn üzrə dərs ayrıca yaradılan "Facebook" səhifəsində də yayımlanır. Bu barədə Təhsil Nazirliyinin ictimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov nazirliyin "Facebook" səhifəsində yayımlanan "Təməl" proqramında bildirib. "Məsafədən təhsildə yeni reallıqlar" mövzusunda müzakirələrin təşkil edildiyi həmin proqramda Təhsilin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov, Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Vəfa Yaqublu və müavini Orxan Abbasov "Microsoft Teams" platformasında müəllim və şagirdlərin fəallığına təsir edən amilləri nəzərdən keçiriblər.

**Ötən həftənin sonundan başlayaraq, teledərslər "You Tube" kanalına da yerləşdirilir. Odur ki, teleməkanda dərs vaxtını qaçıranlar həmin dərsi buradan da izləyə və öyrənə bilərlər. Üstəlik, bu həftədən hər fənn üzrə dərs ayrıca yaradılan "Facebook" səhifəsində də yayımlanır.**

**Bu tədris ilindən platformanın idarə edilməsi də asanlaşdırılıb və funksiyaların çoxu məktəb direktorlarının, direkror müavinlərinin ixtiyarına verilib. Bu yolla onlar dərslərin verilməsi və qrafiklərin qurulmasını təmin edirlər. Şagirdlərin virtual dərslərdə iştirakının artırılması üçün isə motivasiya və dərs vaxtının dəyişməzliyi önəmlidir.**

**"Hazırkı vəziyyətlə bağlı təklif olunan model budur ki, birinci yarım ilin sonunda böyük summativ qiymətləndirmə keçirilsin və onun nəticəsi yarım ilin nəticəsi kimi qəbul edilsin. Amma bu, hələ təklifdir. Bu barədə qərar qəbul edildikdə məktəblərə məlumat veriləcək".**

### Müəllim və şagirdlər üçün təhlükəsiz virtual mühit

Təhsil Nazirliyinin Təhsilin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov aprelin 2-dən istifadəyə verilən "Virtual məktəb" platformasında qeydiyyatdan keçən müəllim və şagirdlərin sayının artıq 1 milyon 200 mini ötdüyünü deyib: "8-14 noyabr tarixləri üzrə platformada qeydiyyatdan keçmiş şagirdlərin sayı 1229618, müəllimlərin sayı 120885, aktiv istifadəçilərin sayı 804 608 nəfər, həftə ərzində keçirilmiş dərslərin sayı isə 4068136 olub. Bu da o deməkdir ki, müəllim və şagirdlərin böyük əksəriyyəti bu platformaya çıxış əldə ediblər. Özü də, sadəcə paytaxt yox, bütün ölkə ərazisində bu iş səmərəli şəkildə qurulub. "Microsoft Teams" platforması istifadəçi sayı və fəallığından da göründüyü kimi, stabil işləyir. Vətən müharibəsinin başlanması ilə platformadan istifadə qismən məhdudlaşdırıldı. Lakin aparılan işin nəticəsi olaraq bu vəziyyət qısa müddət sonra dəyişdi və virtual dərslər bərpa edildi".

"Virtual məktəb" platformasında həm müəllimlər, həm də şagirdlər üçün təhlükəsiz onlayn mühit yaradıldığını qeyd edən İdarə rəisi qeydiyyat zamanı bütün proses və fəaliyyətin nəzarətə götürüldüyünü vurğulayıb. Hazırda platformada şagird və müəllimllər böyük qruplarda formalaşıblar.

### Dəyişməz cədvəl

Bu tədris ilindən platformanın idarə edilməsi də asanlaşdırılıb və funksiyaların çoxu məktəb direktorlarının, direkror müavinlərinin ixtiyarına verilib. Bu yolla onlar dərslərin verilməsi və qrafiklərin qurulmasını təmin edirlər. Bundan başqa, portalda direktor və direktor müavinləri üçün rəhbərlik etdikləri təhsil müəssisəsi üzrə bütün sinifləri, siniflər üzrə aparılan bütün dərsləri izləmək imkanı var. Məsafədən təşkil olunmuş dərslərin keyfiyyətinin ölçülməsi, davamiyyətə nəzarət, icmallaşdırılmış məlumatların toplanılması və təhlili imkanları təqdim olunur. Həmçinin xüsusi yaradılmış qruplarda müəllimlərlə birgə pedaqoji şuralar və valideynlərlə iclaslar keçirmək mümkündür.

Bu tədris ilindən yerli təhsili idarəetmə orqanları üçün də onların tabeliyində olan təhsil müəssisələrinin "Virtual məktəb"də fəaliyyətlərinin təşkilinə nəzarət asanlaşıb. Belə ki, rayon (şəhər) təhsil şöbələrinin (idarələrinin) rəhbər heyətinə təqdim olunmuş istifadəçi adı və şifrə ilə "Virtual məktəb"də təhsil müəssisələri üzrə statistik məlumatlar əldə etmək mümkündür.

Qeyd edək ki, yeni nəzarət mexanizmi ümumi ölkə üzrə faiz göstəriciləri, ayrı-ayrılıqda təhsil müəssisələri üzrə qeydiyyatdan keçmiş müəllim, şagird sayı, siniflər üzrə şagirdlərin yaş qrupları, bölmələr üzrə statistik göstəricilərlə tanış olmaq və bu göstəricilər əsasında müvafiq təhlillər aparmaq imkanları təqdim edir.

Şagirdlərin virtual dərslərdə iştirakının artırılması üçün isə motivasiya və dərs vaxtının dəyişməzliyi önəmlidir.

Virtual dərslərin dərs cədvəlinin hazırlanmasına toxunan Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Vəfa Yaqublunun fikrincə, müəllimlər çalışmalıdır ki, dərs cədvəli tez-tez dəyişməsin: "Buna nail olarsa şagirdlərin motivasiyası yüksək olar, dərsə qatılanların sayı artar".

Dərslərin məzmununa gəlincə, V.Yaqublu bildirib ki, məruzə formatında olan virtual dərslər vasitəsilə müəllimlər, sadəcə nəzəri biliklər ötürə bilir, praktik bacarıqlar formalaşdırmaq imkanı olmur.

Dərslərin hansı formatda keçirilməsi şagirdlərin vətənpərvər ruhda tərbiyəsinə mane ola bilməz. V.Yaqublunun fikrincə, fəndən asılı olmayaraq hər bir sinifdə Vətən müharibəsindən danışmaq lazımdır: "Bir tərəfdən Şanlı Qələbəmizə gedən yolu uşaqlarla müzakirə eləmək, digər tərəfdən də bu müharibənin nəticəsi olaraq qazandıqlarımız, geri qaytardığımız torpaqların coğrafiyası, biologiyası, xalq yaradıcılığı, təsviri incəsənəti və s. uşaqlar üçün maraqlı olar. Bu, böyük bir öyrənmə arealıdır. Vətən müharibəsi mövzusu bu gün istənilən fənnə inteqrasiya oluna bilər. Mövcud emosional yüksəlişdən vətənpərvərlik ruhunun təbliğində istifadə etmək məqamıdır".

### Virtual dərsin qiymətləndirilməsi

Məktəblərin fəaliyyətinin tamamilə virtual məkana köçürülməsi ilə nəticələnən COVID-19 koronavurus infeksiyasının səbəb olduğu mövcud sanitar-epidemioloji vəziyyət bu dövrdə verilən təhsilin keyfiyyətinin ölçülməsinin yol və vasitələrini də gündəmə gətirib. Odur ki, Təhsil Nazirliyi tərəfindən şagirdlərin biliyinin hansı formada qiymətləndirilməsi ilə bağlı müzakirələr aparılır. Vəfa Yaqublunun sözlərinə görə, ənənəvi tədris zamanı yarım tədris ili ərzində bir neçə dəfə kiçik və sonda böyük summativ qiymətləndirmə keçirilirdi və onun əsasında yarım il üzrə düstur əsasında qiymətləndirmə aparılırdı: "Hazırkı vəziyyətlə bağlı təklif olunan model budur ki, birinci yarım ilin sonunda böyük summativ qiymətləndirmə keçirilsin və onun nəticəsi yarım ilin nəticəsi kimi qəbul edilsin. Amma bu, hələ təklifdir. Bu barədə qərar qəbul edildikdə məktəblərə məlumat veriləcək".

### Yenidən hibrid?

Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdir müavini Orxan Abbasov isə başqa bir yeniliyə diqqət çəkib. Nazirlər Kabinetinin qərarına əsaslanaraq müavin bildirib ki, növbəti həftələrdə və aylarda sanitar-epidemioloji vəziyyət nəzərə alınmaqla tədrisdə hibrid və əyani formaya keçid gözlənilir. Onun sözlərinə görə, bununla əlaqədar Təhsil Nazirliyinin müvafiq şöbələri digər aidiyyati qurumlarla birlikdə ölkədəki sanitar-epidemioloji vəziyyəti izləyir: "Əgər həqiqətən də ölkədə sanitar-epidemioloji vəziyyət təhlükəli həddə olmasa, dəyişikliklər nəzərə alınacaq və bu barədə məlumat ictimaiyyətin nəzərinə çatdırılacaq. Amma məlumdur ki, bu virusun necə yayılacağını heç kim bilmir. Məsələn, tədris başlayana qədər ölkədə sanitar-epidemioloji durumun ən yaxşı olduğu bölgələrdən biri Quba idi, amma ilk bağlanan məktəb də Qubanın ucqar kənd məktəbi oldu".

### Pandemiya məktəbi: qazandığımız vərdişlər

Azərbaycan təhsil sistemi mövcud sanitar-epidemioloji vəziyyətlə əlaqədar yeni çağırışlara dərhal reaksiya verməklə müasir tətbiqlərlə bağlı maraqlı təcrübə qazandı. Bu istiqamətdə hətta bir neçə ölkəyə nümunə olan təhsil sistemimizin ən böyük qazancı da məhz ötən ilin mart ayından başlayaraq əldə etdiyi yeni vərdişlərdir.

# Kamilliyə aparan yol



## "Bir vəzifəmiz də yaxşı ənənələri yaşatmağa nail olmaqdır"

Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsinin müdiri, pedaqogika elmləri doktoru, professor İntiqam Cəbrayılovla söhbət

- *Ailə əxlaq məktəbidir. Təkcə əxlaqmı?*

- Əlbəttə, onu təkcə bu cür xarakterizə etmək onun funksiyasını, dəyərini kiçiltməkdir, ailədə formalaşır xarakter, gör-götür yeridir, gen daşıyıcımızdır ailə, həyatda qazanacağımız çox uğurlar üçün ona borcluyuq. Anadan olan çağımızdan həyatdan köç edənə qədər yaşam tərzimizin kompası ailədir. Bir müəllim, elm adamı kimi bizim bir vəzifəmiz də yaxşı ənənələri yaşatmağa nail olmaqdır, o cümlədən ailə dəyərlərini.

### Atam həm də müəllimim idi

- *Atanız müəllim olub, qardaşınız Azərbaycan dili və ədəbiyyat, siz isə tarix müəllimi, ailədə daha bir kimsə varmı müəllim olan?*

- Mən Hilal müəllimin ailəsində dünyaya gəlmişəm, atam ixtisasca Azərbaycan dili və ədəbiyyatı müəllimi idi. Ailədə səkkiz uşaq olmuşuq-beş qardaş və üç bacı. Bizim gələcəyimizin təminatçısımı deyim, onun doğru-düzgün seçimindəmi deyim, atamızın rolu əvəzolunmaz, müqayisə olunmazdır. İki qardaş və bir bacımız onun yolunu seçmişik.

Atamız bizə ailə dəyərlərini başa salardı, əxlaq, mənəviyyat söhbətləri edərdi, məktəbdə dərslərimizə nəzarət edərdi, çox dəqiq və diqqətli idi rəhmətlik. Mənim Azərbaycan dili və ədəbiyyat müəllimim də atam olub. O, mənim üçün bir akademiya idi. Evdə də rəhmətlik Səkinə anamız sanki o deyənlərin icrasına məsul və cavabdeh idi. Onu da deyim ki, atam qonşu Xol Qaraqaşlı kənd məktəbində direktor, bizim Qırmızıkənddə direktor müavini (həm də axşam məktəbinin direktoru) işləyib, nəzarəti həmişə üstümüzdə olub. Atam yaradıcı adam kimi də tanınırdı, yerli və respublika qəzetlərində bədii və publisist, pedaqoji yönlü yazılarla tez-tez çıxış edərdi, bacım Səidə müəllim, qardaşım Şahin müəllim və məndə bu yaradıcı cəhətin aşkarlığı ordan gəlir. Həvəsi, marağı o oyadıb bizdə... Bir sözlə, məktəb və həyat dərsini atamdan almışam. Aldıqlarımı da böyük qürurla indiki evimə, ailəmə gətirmişəm, şükürlər olsun ki, iki övladımızı da o ruhda tərbiyə etmişik və hələ bu dərslər bitib-tükənməyib.

- *Bəs sinif yoldaşlarınızı, məktəbin özünü peşə seçiminizdə bir vasitə qismində hesab etmək olarmı?*

- Mənim riyaziyyat müəllimim elə bilirdi o istiqamətə gedəcəyəm, tarix müəllimim də onun kimi düşünürdü. Mənim özüm hüquqşünas olmaq istəyirdim, vaxt gəldi bu fikirdən daşındım. Yoldaşlarımızla bu barədə tez-tez fikir mübadiləsi edirdik, amma atamız bizə onlardan qat-qat irəli yoldaş, sirdaş idi, bütün kənd ona üz tutub, ondan məsləhət, öyüd-nəsihət alırdı, o ki, ola biz övladları... Yeridir, onu da deyim ki, qismən də olsa arzuma çatmışam, Azərbaycan Dövlət Pedaqoji Universitetində bir vaxt oldu tarix və hüquq fakültəsi açıldı, beş illik təhsil aldım, iki ixtisasa yiyələndim və bütün fəaliyyətim dövründə ikinci ixtisasım karıma gəlib. Fikir verin, niyyətlərin gerçəkliyinə, pedaqoji yaradıcılıqda tərbiyə məsələləri əsas mövzu aktuallığı kəsb etdi, tarix və hüquq təhsilim o qədər önəm daşıdı pedaqoji tədqiqatlarımda-bax buna görə seçimimə, aldığım təhsilə, ailəmdən gələn tərbiyə, əxlaq dəyərlərinə görə Allahıma şükranlıq edirəm. Müəllimliyimdə, elmi yaradıcılığımda bu qazanclarımdan gen-bol istifadəm mənim uğudlarımın əsas komponentləridir...

### Nostalji hisslər məni tez-tez çulğalayır

- *Məktəb illərini xatırlamaq üçün, həm orta, həm də ali, həmişə nəsə bir bəhanə olur-hər kəs üçün özəlliklə olan bir bəhanə...*

- Müxtəlif bəhanələr yetişə bilər, məktəb və ya tələbə yoldaşınla rastlaşarsan, ünsiyyətin olar, evdə ara-bir şəkillər qalereyasını nəzərdən keçirərsən, məktəblərə yolun düşər, sənə dərs deyən müəllimlərinlə görüşərsən, övladının təhsili ilə maraqlanıb oxuduğu məktəbə yolun düşər və s. bəhanələr adamı buna kökləyə bilər. Bu cür nostalji hisslər məni tez-tez çulğalayır, müəllimliyim və işlədiyim Təhsil İnstitutu ilə bağlı məktəblərə ezamiyyətlərim bunu gündəmdə çox saxlayır. Düzünü deyim, məni bu hisslər yormur, əksinə o qədər xoş duyğular yaradır ki, fəaliyyətimdə bunları da mənəvi-əxlaqi stimul hesab edirəm.

- *Ali məktəbi fərqlənmə diplomu ilə bitirmisiniz, yolayrıcı hər bir kəs üçün tale, qismət nişanəsi, sınağıdır, bu tərəddüdlü vaxtları necə xatırlayırsınız?*

- O vaxt təyinat idi, ali məktəbi bitirəndən sonra məcbur üç ili işləməli idin göndərilən yerdə. Təyinat rayonumuza idi, təhsil şöbəsinin müdiri bildirdi ki, öz kənd orta məktəbində yer yoxdur, başladı yerlər sadalamağa, dedim ki, bunun elə bir fərqi yoxdur, üç il işləyib şəhərə qayıtmaq istəyirəm, aspiranturaya daxil olmaq, elmi yaradıcılıqla məşğul olmaq niyyətimi bildirdim. Təklif etdi, Xol Qaraqaşlı kənd məktəbini, razılıq verdim, bir səbəb də o idi ki, atam vaxtilə o məktəbdə direktor işləmişdi. Demək olar ki, hər gün 7-8 kilometrlik yol qət etməli olurdum, özü də payi-piyada. Bu üç ildə ailə qurmuşdum. Aspiranturaya (indiki dillə desək doktoranturaya) qəbul oldum. 1992-ci ilin dekabrında aspiranturanı müvəffəqiyyətlə bitirdim və mən elə aspirantura təhsili aldığım elmi müəssisədə - Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda (Təhsil İnstitutunun əvvəlki adıdır) kiçik elmi işçi kimi işə qəbul olundum.

### Qazancım itkilərimdən çox olub

- *Əzab-əziyyətiniz çox olub, qazancınızmı çox olub,ya itkinizmi, o illərdə nəyiniz qalıb-hansı ki o kövrək duyğularınız ara-sıra rahatlığınızı əlinizdən alır... İlk iş yeri Sizə nə verdi, nəyi aldı görən?..*

- İxtisasımla bağlı bir neçə işlər gördüm-tarix klubu yaratdım, dərnəklər, konfranslar, ədəbi-bədii gecələr ənənə şəklini aldı. Kitaba, mütaliəyə maraq yaradırdım, kitab müzakirələri keçirirdim. Tərif olmasın, bu üç ildə məktəbə təzə, yeni bir nəfəs gətirdim, məktəb həyatında sanki bir canlanma yaratdım. Bu fəaliyyətimə məktəb rəhbərliyi, həmkar yoldaşlarımın dəstəyi olmasaydı, yəqin ki, bunları reallaşdıra bilməzdim. Əzab-əziyyətim çox olub, rahatlığım belə yox idi, amma qazancım itkilərimdən dəfən-dəfən çox olub. Qazandıqlarıma görə atamdan sonra digər müəllimlərimə, ilk iş yerinin müəllimlərinə, yurd yerinin doğma adamlarına borcluyam. Allahımız hər kəsi borc qismində yaradıb, özümü kiminsə, yaxud kimlərinsə ruhu qarşısında borclu sanıram, ruhları şad olsun...

- *Müəllimlik və elmi yaradıcılıq. Siz müəllimlikdən, yəni bu ocaqdan bu məbədə gəlmisiniz, sonra isə fəaliyyətinizi hər iki sahədə paralel davam etdirdiniz. Hansını o birinə borclu bilirsiniz, yaxud...*

- Biz indi müəllimləri yaradıcılığa sövq edirik ki, onun dərsinin aktuallığı olsun, günün tələblərinə uyğunlaşsın. Yaradıcılıq, tədqiqatçılıq mənə hələ ali məktəb illərindən keçib, oxuduğum beş ildə elə kafedra olmasın ki, ordan bir elmi mövzu götürüb elmi konfranslarda çıxış etməyim, yer tutmayım. İndi də elmi yaradıcılığımın təsdiq forması həm də dərs dediyim ali məktəbdir, müəllimliyimin də yaxşı tərəfdən elmi yaradıcılığımda, Təhsil İnstitutunda rəhbəri olduğum şöbənin fəaliyyət müstəvisində bir təsdiqi, inikasıdır, biri bazis olanda o biri üstqurum olur, sonra yerləri dəyişir, bir növ, yarızarafat, yarıgerçək deyək, toplananların yerin dəyişəndə cəm dəyişməz qalır.

- *Uzun müddətdir Təhsil İnstitutunda işləyirsiniz, bu institut gözünüzün qarşısında böyüyüb, elə siz də qarşılıqlı, çox dövrlərini yaşayıb bu iş yeri, bir tarixçi kimi xronoloji cəhətdən təhlil aparsanız, intibah və tənəzzül dövrlərini necə xarakterizə edərdiniz?*

- Bu institut 1931-ci ildə yaranıb, müxtəlif adlarla fəaliyyət göstərib. 2006-cı ildə 75 illik yubileyi keçirilib. Gələn il 90 illik yubileyi olasıdır, inşallah. Zahid Qaralovun, Şəmistan Mikayılovun, Abdulla Mehrabovun, Qulu Novruzovun, hazırda Təhsil nazirimiz olan Emin Əmrullayevin və indiki direktor Anar Nağıyevin rəhbərliyi dövrlərinə təsadüf edib mənim əmək fəaliyyətim. Burda işləyənlərdən hər bir kəs etiraf edər ki, bu elm ocağı hər dövrünə görə bir dinamik inkişaf xətti ilə özünü təsdiqləyib, öz elmi, təşkilati funksiyasını həyata keçirib. Tənəzzül dövrünü xatırlamıram, çünki hansı dövrü götürsək, o illərdə inkişaf xətti lap aydın görünər, ola bilər problemləri, çətinlikləri olsun, xüsusilə 1990-cı illərin əvvəllərində, bunu bütün qurumlara şamil etmək olar. Xüsusilə indiki rakursdan baxsaq, bir həqiqət etiraf olunmalıdır ki, təhsilimizin dinamik inkişafına bu elm ocağının da öz töhfəsi olub, dövründə nə qazanılıbsa, bu sahədə bizim alimlərimizin də tədqiqatları əhəmiyyətli rol oynayıb... İndi institut xeyli genişlənib, yeni strukturda fəaliyyət göstərir. Əvvəllər fəaliyyət dairəsi yalnız elmi-pedaqoji tədqiqatlar və elmi-pedaqoji kadr hazırlığı idisə, indiki funksiyasına həm praktik-metodik, tədris resursları, təlim texnologiyalarının tətbiqi, istedadlı uşaqlarla işin təşkili (həmçinin olimpiadalara hazırlıq), təhsil işçilərinin peşəkarlığının artırılması və digər praktikyönlü təhsil problemləri ilə bağlı funksiyalar da əlavə edilib. Çox güman ki, onun fəaliyyət sferası daha da genişləndiriləcək, yeni, modern tipli bir elm mərkəzinə çevriləcək.

Qeyd edim ki, indi məsuliyyət və cavabdehlik artıb. Əvvəl şöbə "Təhsilin nəzəriyyəsi" adlanırdı, indi isə "Təhsilin nəzəriyyəsi və tarixi" adlanır, təkcə ad dəyişilməyib, funksiyamızla bərabər məsuliyyət və cavabdehlik də önəmli olub. Yuxarıda adlarını sadaladığım direktorların dövrünün hər birində şanslarım, uğurlarım olub. Qaldı kimdənsə gördüyüm xeyirxahlıqlara, birinin adını çəkib, o birini çəkməməyim, bu, etikadan kənar olardı, kimsəni incik salmaq istəməzdim, amma birinin adını mütləq çəkməliyəm, o da mənim elmi rəhbərim olan professor, gözəl alim Akif Abbasovdur, həyatımın sonuna qədər minnətdar və borclu olacağım əvəzolunmaz insan...

- *Qonşuluq təkcə yaşadığı yerdə olmur, elə iş yerində də olur, qonşularınızdan danışaq, bəlkə onların özü üçün də maraqlı olar ki, İntiqam müəllim onlar barəsində nə fikirləşir, nə qənaətdədir, nə az-nə çox, az qala 30 ilə yaxındır bir yerdəsiniz, gedəni olub, dünyasını dəyişəni var, qalanı var...*

- Ən əvvəl professor Əjdər Ağayevin adın çəkmək istəyirəm. Pedaqogika sahəsində dəst-xətti olan Əjdər müəllimlə uzun müddət birgə əməkdaşlıq etmiş, vaxtilə ayrı-ayrı şöbələrdə çalışsaq da Təhsil Nazirliyinin, Ali Attestasiya Komissiyasının qərarı ilə institutumuzda yaradılmış eyni elmi-ictimai qurumlarda fəaliyyət göstərmişik. İndi institutda qonşularım direktor müavinləri Ənvər Abbasov, Rəfiq Qəndilov, Aydın Əhmədovdur, çalışdığım Elmi-Pedaqoji Tədqiqatlar Mərkəzinin direktoru İlham Cavadovdur, professor Vidadi Xəlilovdur, professor Hümeyir Əhmədovdur, professor Piralı Əliyevdir, digər dəyərli tədqiqatçı alimlərimiz-Asif Hacıyevdir, Bibixanım İbadovadır və başqaları... Əlbəttə, belə dəyərli qonşular çoxdur. Bu alimlərlə hər gün təhsil problemlərilə bağlı fikir mübadiləsi edir, diskussiya aparırıq. Çox mehriban və səmimi münasibətlərimiz var, bu timsalda bütün institutda bu ab-hava hökm sürür. Burda həddən ziyadə etik və mədəni davranış qaydaları yaradılıb, hamı bir-birinə doğma, isti münasibət bəsləyir.

### Elmi tədqiqat yaradıcılığı təhsil sferası üçün əhəmiyyətlidir

- *Rəhbərlik etdiyiniz şöbənin iş fəaliyyəti, əməkdaşların peşə kredosu bu baxış bucağından necə görünür?Siz bu kollektivdən çıxmısınız, bu kollektivdə varsınız və bu kollektivin dünəni, bu günü və sabahı həmişə Sizi düşündürür. Məqamıdır, düşüncələrinizdən lazım bildiyinizi bəlkə bizlə bölüşəsiniz?*

- Şöbənin 11 əməkdaşı var. Burada respublikamızın tanınmış pedaqoq-alimləri işləyirlər. Məsələn, professor Zəhra Muradova, dosent Mahirə İbadova, dosent Nigar Muradova və başqaları ölkəmizdə öz tədqiqatları, imzaları ilə yaxşı tanınan alimlərdəndir. Şöbəmizdə Mətanət Qurbanova, Könül Mikayılova, Günay Hüseynzadə kimi gənc və perspektivli tədqiqatçılar da fəaliyyət göstərirlər. Şöbəmizin fəaliyyət dairəsini belə təsəvvür edin: Təhsilin bütün pillələri, səviyyələri, istiqamətləri üzrə tədqiqatlar aparırıq. Bütün təhsil pillələri üzrə tədqiqat aparan mütəxəssislər çalışır şöbəmizdə. Onların elmi-tədqiqat yaradıcılığı təkcə institut üçün deyil, bütövlükdə təhsil sferası üçün əhəmiyyətlidir. Bunu fəaliyyətimizin nəticəsi kimi rəhbərliyin verdiyi dəyərə müqabil bu cür düşünür və bu qənaətdəyəm. İkinci tərəfdən əgər təhsil pillələrində bizim elmi yolla əldə etdiyimiz qərarlara istinad edilirsə, bundan yararlanırlarsa, bu da fəaliyyətimizin göstəricisinin bu yolla təsdiqi formasıdır.

- *Xeyli müddətdir Bakı Qızlar Universitetində də işləyirsiniz, orada Tarix kafedrasının müdirisiniz. Sizi ora çəkən və orda bu qədər müddətə qərar tutub saxlayan səbəbi bilmək olarmı?*

- 1992-ci ildə özəl ali məktəblərin açılmasına icazə verilmişdi. O zaman Bakı Ali Pedaqoji Seminariyası açıldı (indiki Bakı Qızlar Universiteti), onda bizim institutun şöbə müdiri professor Ağarəhim Rəhimov onun rektoru oldu, seminar dərslərinin aparılması üçün işə götürüldüm. 1994-cü ildə "Tarixi abidələr şagirdlərdə millimənlik şüuru formalaşdırmağın vasitəsi kimi" mövzusunda müdafiə etdim, sonradan kafedra müdirliyinə irəli çəkildim. Burada Tarix kafedrası 1996-cı ildə yaradılıb. O zamandan bu günədək kafedra müdiri kimi fəaliyyətimi davam etdirirəm. Burada olan elmi mühit, kollektivin səmimiliyi, münasibətlərdə tələbkarlıqla bərabər demokratiklik, humanistlik, hər kəsin bir-birinə diqqət və qayğısı və digər mənəvi keyfiyyətlər əməkdaşlığı daha da möhkəmləndirir.

### Kitab nəşri elmin fəaliyyət kredosudur

- *Kitablarınızdan danışaq, hər iki sahədə xeyli sayda kitablarınız, monoqrafiyalarınız nəşr olunub, hansı ki, onlar pedaqoji fikir tarixində qalıb, qalacaq və yaşayacaq. Maraqlıdır, görən nə vaxtsa bu əsərləri vahid bir sujet xəttində, bir konsepsiya altında işləyib pedaqoji aləmə təqdim etmək barədə fikirləşmisinizmi?*

- Kitab nəşri alimin fəaliyyət kredosu, elm adamı kimi kimliyinin təsdiqidir. Bu nöqteyi-nəzərdən xeyli sayda kitablarım nəşr olunub, bir alim kimi tədqiqatlarımdan yararlananlar yetərincədir, əminəm ki, bir vaxt gələcək pedaqoji fikir tarixində mənim yaradıcılıq fəaliyyətim kimlərinsə tədqiqat obyekti olacaq.

- *Biz tələbə yoldaşı olmuşuq, siz məndən iki kurs aşağıda oxuyurdunuz, bizi birləşdirən mənim rəhbərlik etdiyim "Çeşmə" ədəbi birliyi olub, şeirlərinizlə bizim ədəbi məclislərimizə qatılırdınız, o vaxt neçə görüşlərdə olmuşduq, radioda çıxışlarımız olurdu...*

- Yadımdadır, institutun kiçik zalına toplaşmışdı yaradıcı heyət. Prorektor Şükür Sadıqov, dekan müavini Yaqub Mahmudov, partiya təşkilat katibi Bahadur Bəxtiyarov, bir neçə müəllimlərimiz də ora təşrif buyurmuşdu, çıxış edib bizə xeyir-dualarını verdilər. Hər ay bir dəfə yığılırdıq, öz yazılarımızı oxuyur, fikir mübadiləsi edirdik. İnstitutun orqanı olan "Gənc müəllim" qəzetində bədii yazılarımızla çıxışlar edirdik.

O dövrdə yaxşı oxumağın da, elmi və bədii yaradıcılığın, fəal təşkilatçılığın da fövqündə əxlaq, tərbiyə dayanırdı, bu cür müsbət dəyərlərə malik olanların əksərində bu dəyərlər bu və ya digər formada o tələbənin şəxsində təsdiqini tapırdı.

- *60 yaşın astanasındasınız. İndi dağ zirvəsindən o yaşıl yamaclara, tapdaq olunan yol-rizə, cığırlara baxır, baxır və köks ötürürsünüz, keçib gəldiyiniz o yolda azıb-itən nəyinizsə qalıbmı?*

- 60 yaşda çox şey gördüm, görmədiklərim də az olmadı, elədiklərim çox oldu, eləmədiklərim bəlkə də ondan çox, qazandığım çox oldusa, itirdiyim bəlkə də ondan çox... Peşmançılığın faydası nə, bir ömür qarşısında suçlumu, qürurlumu? Bax, bu, mənə agah deyil. Bu duyğular, hisslər məni ötən əsrin 80-ci illərinə apardı.

Ötən də, gələcək də Allah yazısı, yazıya pozu yox, tale göydən düşmür, hər bəndəsinə bir cürəsin göndərir, şükür edirəm ki, mənim özümə yaraşdırıb, layiq bildiyi kimi onu verib...

- *60 yaş... Sanki oxunası, təqdir olunası bir kitab, bu kitaba bir neçə kəlmə sözönü yazsaydınız, nə yazardınız?*

- Kitab oxunmalıdır ki, onu kitab qismində saysınlar, kitab oxunmasa o kimə gərəkdir. Faydalısı, lazımlısı diqqətdə saxlanılar. Ömür kitabımı tanımaq üçün o ən əvvəl oxunmalıdır, oxuyub faydalanmaq üçün orda özlərinə lazım olanı taparlar. Tapıb ondan ibrət götürsələr, tərbiyələnsələr, yararlansalar... 60 yaşımın çırağı bir az da nurlanar, şölə saçar, yaşamağa və yaşatmağa rövnəqləndirər.

**İslam ƏSGƏROĞLU,**
*tarixçi-politoloq, yazıçı-publisist*

Tərbiyə körpəlikdən evdə başlanır, sonra bağçada və məktəbdə davam edir. Lakin insan ömrünün sonuna qədər özünütərbiyə ilə məşğul olmalıdır. Tərbiyə anlayışı bir çox şaxələrə ayrılır: mənəvi, siyasi, hüquqi, etik, estetik, fiziki, əmək və s. Bu gün hamımızı düşündürən ekoloji tərbiyədən yazmaq istədim. O tərbiyə ki, son dövrdə aktual olan qlobal problemlərin baş verməsinin qarşısını ala biləcək gücə malikdir.



# Ekoloji tərbiyənin sağlamlıqda rolu

**Əsmər ƏHMƏDOVA,**

*ADPU nəzdində ADPK-nin biologiya müəllimi*

## Biz müəllimlərin üzərinə böyük məsuliyyət düşür

Ekoloji tərbiyəyə verilən tələblərə uyğun olaraq yeni yetişən nəsildə özündə təbiət haqqında bilikləri və ona qarşı məsuliyyətli, humanist yanaşmasını ehtiva edən məqsədyönlü yüksək ekoloji mədəniyyətin formalaşdırılması məsələlərindən biri kimi diqqətdə saxlanılmalıdır. Yüksək mədəni-mənəvi keyfiyyətlərə malik insan həm də tərbiyəli vətəndaş kimi özünü göstərir. Ekoloji tərbiyəsi olan insan həm özünün, həm də ətrafdakıların sağlamlığı üçün məsuliyyətini dərk edir, başa düşür ki, təbiət güclüdür, lakin ona qarşı laqeyd münasibət olarsa o güc də tükənə bilər. Təbiət nə qədər özünü tənzimləsə də, ona edilən təsirlərdən ekoloji problemlər daha da dərinləşə bilər. Nəticədə müxtəlif fəsadlar baş verər ki, bunlardan da birincisi insan sağlamlığına mənfi təsiridir. Təəssüflər olsun ki, ətrafda gördüklərimiz, tez-tez rastlaşdığımız səhnələr bəzi şəxslərin hələ də ekoloji tərbiyəni tam dərk etmədiyinin şahidi oluruq. Pandemiyanın yayıldığı bir dövrdə hər kəsin məsuliyyətli və bu bəla ilə birlikdə mübarizə aparmalı olduğu halda bu, ürəkağrıdandır. Xəstəliyin qarşısının alınmasında iştirak etmək əvəzinə, onun geniş yayılmasına zəmin yaratmaqla cəmiyyətə böyük ziyan vuranlar mənim düşüncəmə görə məsuliyyətlərini dərindən dərk etməlidirlər. Bəzi hallarda zibil qutusuna deyil, yollara atılmış tibbi maskalar, tullantılar hələ də ekoloji cəhətdən zəruri bacarıqlara yiyələnməyənlərin bir göstəricisidir. Buna görə də bütün təhsil müəssisələrinin əsas öncəliklərindən biri ekoloji təhsil və tərbiyənin təşkili olmalıdır. Əvvəldə qeyd etdiyim kimi, tərbiyə ailədən başlasa da, tədris müəssisələrində davam etdirilməlidir. Mədəniyyətin formalaşması və inkişafı tədrislə əlaqədardır. Deməli, bu işdə biz müəllimlərin də üzərinə böyük məsuliyyət düşür. Hər bir pedaqoq, ilk növbədə, ekoloji biliklərə yiyələnməli, bu istiqamətdə özünü təkmilləşdirməli, sonra da öz ekoloji tərbiyəsini uşaqlara ötürməlidir. Öz davranışı ilə onlara örnək olmalıdır. Lev Tolstoyun dediyi kimi: “Ən yaxşı tərbiyə yaxşı örnək olmaqdır”. Ekoloji tərbiyəsi olan insan təbiətə, təbiətin bir parçası olan insanlara ziyan vurmaz, öz imkanları daxilində təbiətə xeyir verməyə çalışar. Bu xeyir ağac əkmək, bitkiləri sulamaq, heyvanlara qulluq etmək şəklində baş verə bilməsə də, ən azından onlara ziyan vurmamaq, ətrafı çirkləndirməmək şəklində də həyata keçə bilər.

# Etibarsız sayılır

**Odlar Yurdu Universiteti** tərəfindən 2015-ci ildə Kərimova Gülər Məzahir qızına verilmiş A-062226 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Yerli Sənaye Texnoloji Texnikumu** 1993-cü ildə bitirmiş Cabbarova (Cavadova) Xalidə Mürsəl qızına 2005-ci ildə verilmiş BB-II-007943 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Avropa Liseyi** tərəfindən 2013-cü ildə Musayev Cavid Emin oğluna verilmiş A-233544 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2018-ci ildə Musayev Cavid Emin oğluna verilmiş C-024591 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Şamaxı Aqrosənaye İqtisadiyyat Texnikumu** tərəfindən 1993-cü ildə Hacıyev Qalib Zahid oğluna verilmiş PT-119000 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Quliyeva Aysu Abbas qızına verilmiş A-596891 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xocalı şəhər** 5 nömrəli tam orta məktəbi (Goranboy rayon Yuxarı Ağcakənd qəsəbə) 2015-ci ildə bitirmiş Baxşəliyev Elvin Nizami oğluna verilmiş 447941 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1990-cı ildə Axundov Məhərrəm Nadir oğluna verilmiş УB-I-107061 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2002-ci ildə Şıxaliyev Rəfail Rauf oğluna verilmiş AB-II-079300 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2009-cu ildə Şıxaliyev Rəfail Rauf oğluna verilmiş B-160564 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 1 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Əfəndiyev Sərxan Sakin oğluna verilmiş A-078541 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2015-ci ildə Rüstəmova Narınc Məsud qızına verilmiş A-079660 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2015-ci ildə Rüstəmli Elvin Üzeyir oğluna verilmiş A-062852 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu** (Bakı Slavyan Universiteti) tərəfindən 1995-ci ildə Tağıyeva Gövhər Nəsib qızına verilmiş AB-I-008974 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 125 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Əlizadə (İslamova) Elnurə Rafail qızına verilmiş A-004249 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən şəhər** 1 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Bayramova Tünzalə Əli qızına verilmiş 475034 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2013-cü ildə Binnətov Asif Hafiz oğluna verilmiş A-018747 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Lerik şəhər** V.İbrahimov adına İnteqrasiya təlimli internat tipli gimnaziya məktəbini 2020-ci ildə bitirmiş Bağırlı Tahir Bağır oğluna verilmiş E-296548 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2014-cü ildə Allahverdiyev Sənan Əsgər oğluna verilmiş AT-000909 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2013-cü ildə Xocamquliyev Xudaverdi Orazqulu oğluna verilmiş BB-I-022244 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Nizami Gəncəvi adına (indiki Fərman Salmanov) tam orta məktəbi 2001-ci ildə bitirmiş İbrahimova (Rzayeva) Aynurə Mahmud qızına verilmiş A-539679 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Neft Texnikumunu** 1980-ci ildə bitirmiş Əhmədov Fizuli Nəbi oğluna 1985-ci ildə verilmiş ЗT-025576 nömrəli dublikat diplomu itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Şorsulu kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Mirzəyeva (Nəzərova) Xanım Azad qızına verilmiş A-064295 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2017-ci ildə Mirzəyeva (Nəzərova) Xanım Azad qızına verilmiş AM-015298 nömrəli magistr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2015-ci ildə Mirzəyeva (Nəzərova) Xanım Azad qızına verilmiş A-069983 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 31 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Əlmədətov Anar Əmiraslan oğluna verilmiş A-025887 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 13 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Əlirzayeva Fatimə Daşqın qızına verilmiş E-122211 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 187 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Əhmədov Vüsal Qismət oğluna verilmiş B-681838 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Mahmudkənd tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Məmmədov Məhsun Baba oğluna verilmiş C-220317 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 4 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Quliyeva Ramilə Akif qızına verilmiş 720061 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti** tərəfindən 1995-ci ildə İsmayılov Vüqar Rahib oğluna verilmiş AB-I-040618 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2002-ci ildə İsmayılov Vüqar Rahib oğluna verilmiş AB-I-082556 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 3 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Ələkbərov Aqil Müşviq oğluna verilmiş A-135923 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6814, **Sifariş** 2670

**Məsul növbətçi:** O.Mustafayev

# Rusiya universitetləri distant təlimə keçir

**Oruc MUSTAFAYEV**

Noyabrın 16-dan Rusiyanın bir sıra ali təhsil müəssisələri tədrisin distant formatına keçib. Pandemiya şəraitində tədrisi distant formatda davam etdirməyə ilk olaraq M.V. Lomonosov adına Moskva Dövlət Universiteti (MDU) qərar verib. Bu barədə ali məktəbin rektoru, akademik Viktor Sadovniçi müvafiq əmr imzalayıb.

“Moskva Dövlət Universitetində16 noyabr 2020-ci il tarixindən tədris prosesi xüsusi sərəncama qədər elektron təlim və distant təhsil texnologiyalarının tətbiqi ilə həyata keçiriləcək”. Qeyd olunur ki, əmr həmçinin, təhsilalanların lazımi keyfiyyətlə hazırlanmasının və təhsil proqramlarının tam həcmdə həyata keçirilməsinin təmin olunmasını tələb edir.

Rektor V.Sadovniçi bildirib ki, distant təlim forması təhsilin keyfiyyətinə güclü təsir göstərmir. Bununla yanaşı, canlı ünsiyyətin əvəzlənməməsi məsələsi hələ də qalır. V.Sadovniçi əlavə edib ki, hazırda MDU-nun yalnız 15% tələbəsi əyani təhsil alır, 75% artıq uzaqdan tədrislə məşğul olur.

“Şübhəsiz ki, tələbələrin müəllimlərlə ünsiyyətinin bütün imkanlarını qoruyub saxlayacağıq və keyfiyyətin zərər görməməsi üçün hər şeyi etməyə çalışacağıq”, - deyə rektor əlavə edib. Onun sözlərinə görə, müəllimlər üçün bu format əyani işləməkdən asan deyil, ünsiyyət gündəlik davam edir, hətta axşam saatlarında tələbələr müəllimlərlə yazışırlar. O, həmçinin bildirib ki, tələbə uzaqdan ünsiyyət zamanı laboratoriya işində iştirak edə bilsin deyə Moskva Dövlət Universitetində virtual praktikumlar hazırlanır. Rektor sessiyanın distant formatda keçirilməsinin nəzərdə tutulduğunu, bunda problem olmadığını, həmçinin “bunu başqa cür etmək imkanlarını” görmədiyini diqqətə çatdırıb və əvvəlki sessiyanın da artıq distant formatda keçirildiyini qeyd edib. Onun sözlərinə görə, universitet elmi fəaliyyətini dayandırmayıb, üstəlik, əvvəlki dövrlə müqayisədə daha çox məqalə çap olunub.

# ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Goranboy rayonu 3 nömrəli tam orta məktəbin direktoru, Azərbaycanın Milli Qəhrəmanı

**MƏHƏMMƏD HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin İnsan Resursları şöbəsinin müdir müavini Murad Camalzadəyə anası

**BİLƏNDƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Avropa Liseyinin müəllimi Gülarə Quliyevaya oğlu

**NAMİQ QULİYEVİN**

Şəhidlik zirvəsinə ucalaraq həlak olmasından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Masallı rayonu Qodman kənd tam orta məktəbin 1987-ci il məzunları, müəllimləri

**ŞİRXAN ƏMİROVUN**

vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 267 nömrəli məktəb-liseyin pedaqoji kollektivi məktəbin biologiya müəllimi Minbarə Əfəndiyevaya anası

**ZEYNƏB XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Hacıqabul Rayon Təhsil Şöbəsinin rəhbərliyi və pedaqoji kollektivi Təhsil Nazirliyinin İnsan Resursları şöbəsinin müdir müavini Murad Camalzadəyə anası

**BİLƏNDƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Pandemiya və reytinq

## Dünya universitetlərinin növbəti nüfuz sıralaması açıqlanıb





**Oruc MUSTAFAYEV**

2020-ci ilin pandemiya böhranının bütün dünyada ali məktəblərin normal akademik və elmi fəaliyyətini pozmasına baxmayaraq bir sıra universitetlər hazırkı ağır dövrdə də qlobal reytinqlərdə öz mövqelərini yaxşılaşdıra biliblər. Bəzi ekspertlərə görə, COVID-19 universitetlərin nüfuzunu bərpa etmək şansıdır. Universitetlər cəmiyyətdə öz populyarlıqlarını artırmaq üçün kommersiya dünyası ilə daha çox strateji tərəfdaşlıq yaratmalıdırlar.

Böyük Britaniyanın “Times Highers Rankings” nəşrinin növbəti 2020-ci il üzrə tərtib etdiyi dünya universitetlərinin yeni nüfuz sıralamasından (World Reputation Rankings 2020) da görünür ki, pandemiyanın qarşısının alınması istiqamətində universitetlərin elmi tədqiqatlara daha artıq fokuslanması və bu sahədə dünya elminə töhfə verməsi, eləcə də inkişafyönümlü strateji planları onlara akademik mühitdə daha da üstünlük qazandırıb. Reytinqdən göründüyü kimi, Harvard Universiteti ardıcıl olaraq 10-cu ildir ki, reytinqə rəhbərlik edir. ABŞ sıralamada 60 ali təhsil müəssisəsi ilə ən çox təmsil olunan ölkə olaraq qalır. Reytinqin 10-luğu yeganə istisna ilə ötən ildəki kimi dəyişməz olaraq qalır. Yalnız 10-cu sırada Yaponiyanın Tokio Universiteti yer alıb. Bununla da gündoğar ölkənin ən məşhur ali təhsil müəssisəsi Amerikanın digər nüfuzlu ali məktəbi olan Çikaqo Universitetini 12-ci yerə sıxışdırıb. Böyük Britaniya reytinqdə yer almış ali təhsil müəssisələrinin sayına görə (25) 2-ci yerdədir. Böyük Britaniya universitetləri arasında liderlik Kembric Universitetinə (4-cü yer) məxsusdur. Almaniya ali təhsil müəssisələrinin sayına görə (14) 3-cü mövqedədir. Almaniya ali məktəbləri arasında liderlik 42-ci yerdə olan Münhen Universitetinə məxsusdur.

Bu il M.V.Lomonosov adına Moskva Dövlət Universiteti də dünyanın aparıcı universitetlərinin nüfuz sıralamasında 37-ci yerə qədər yüksəlib.

Reytinqdə, ümumiyyətlə, 30 ölkə yer alıb, ötən il onların sayı 19 olub. “Times Highers Education World Reputation Rankings 2020” dünyanın ən böyük ictimai rəy sorğusuna əsaslanır. Reytinq alimlərdən öz sahəsində tədqiqat və tədris üçün ən yaxşı olduğunu düşündükləri 15-dən çox universitetin adını çəkmələrini xahiş edir.

2020-ci ilin reytinqi genişləndirilib və əvvəlki illərdəki 100 ali məktəblə müqayisədə 200 universiteti əhatə edir. Reytinq tərtib edilərkən beş qrupa bölünmüş 13 meyar nəzərə alınıb. Onların sırasında elmi məqalələrdən sitatgətirilmə, innovasiyalara töhfə, tədqiqat fəaliyyətindən əldə olunan gəlirlər, tədrisin keyfiyyəti və universitetin qloballıq dərəcəsi, yəni ən yaxşı işçiləri və xarici tələbələri cəlb etmək imkanları var.

Reytinqlə daha ətraflı *www.timeshighereducation.com/world-university-rankings/2020/reputation-ranking* səhifəsindən tanış olmaq olar.

| Reytinq | Ali məktəbin adı | Ölkə | Tələbələrin ümumi sayı | Tələbə - müəllim nisbəti | Əcnəbi tələbə sayı | Qadın-kişi nisbəti |
|---|---|---|---|---|---|---|
| 1 | Harvard University | ABŞ | 20,823 | 9.2 | 24% | 49 : 51 |
| 2 | Massachusetts Institute of Technology | ABŞ | 11,247 | 8.6 | 34% | 39 : 61 |
| 3 | Stanford University | ABŞ | 16,135 | 7.3 | 23% | 43 : 57 |
| 4 | University of Cambridge | Böyük Britaniya | 18,978 | 10.9 | 37% | 47 : 53 |
| 5 | University of Oxford | Böyük Britaniya | 20,664 | 11.2 | 41% | 46 : 54 |
| 6 | University of California, Berkeley | ABŞ | 41,081 | 13.7 | 17% | 50 : 50 |
| 7 | Princeton University | ABŞ | 7,983 | 8.1 | 25% | 45 : 55 |
| 8 | Yale University | ABŞ | 12,402 | 5.4 | 20% | 50 : 50 |
| 9 | University of California, Los Angeles | ABŞ | 41,066 | 9.4 | 17% | 54 : 46 |
| 10 | The University of Tokyo | Yaponiya | 25,913 | 10.6 | 12% | əks olunmayıb |
| 11 | California Institute of Technology | ABŞ | 2,240 | 6.4 | 30% | 34 : 66 |
| 12 | The University of Chicago | ABŞ | 13,833 | 5.7 | 28% | 46 : 54 |
| 13 | Tsinghua University | Çin | 38,783 | 12.0 | 11% | 34 : 66 |
| 14 | Columbia University | ABŞ | 26,586 | 5.8 | 37% | əks olunmayıb |
| 15 | University of Michigan-Ann Arbor | ABŞ | 42,982 | 8.3 | 17% | 49 : 51 |
| 16 | Peking University | Çin | 39,575 | 11.5 | 15% | 46 : 54 |
| 17 | ETH Zurich | İsveçrə | 18,956 | 12.5 | 39% | 32 : 68 |
| 18 | UCL | Böyük Britaniya | 32,665 | 10.6 | 52% | 57 : 43 |
| 19 | Johns Hopkins University | ABŞ | 16,171 | 4.5 | 26% | 52 : 48 |
| =20 | University of Pennsylvania | ABŞ | 20,578 | 6.5 | 21% | 52 : 48 |
| =20 | University of Toronto | Kanada | 73,370 | 20.1 | 21% | 59 : 41 |
| 22 | Imperial College London | Böyük Britaniya | 16,760 | 11.7 | 56% | 38 : 62 |
| 23 | Kyoto University | Yaponiya | 22,566 | 9.0 | 9% | 24 : 76 |
| 24 | National University of Singapore | Sinqapur | 30,869 | 17.9 | 28% | 51 : 49 |
| 25 | Cornell University | ABŞ | 22,319 | 9.8 | 25% | 49 : 51 |
| 26 | London School of Economics and Political Science | Böyük Britaniya | 10,570 | 12.1 | 71% | 53 : 47 |
| 27 | New York University | ABŞ | 44,466 | 8.9 | 33% | 57 : 43 |
| 28 | Duke University | ABŞ | 15,309 | 4.3 | 19% | 49 : 51 |
| 29 | University of Washington | ABŞ | 45,692 | 11.1 | 16% | 53 : 47 |
| 30 | University of Texas at Austin | ABŞ | 49,165 | 17.2 | 10% | 52 : 48 |
| 31 | University of Edinburgh | Böyük Britaniya | 29,433 | 12.8 | 41% | 60 : 40 |
| 32 | University of Illinois at Urbana-Champaign | ABŞ | 44,916 | 17.9 | 24% | 47 : 53 |
| 33 | University of Wisconsin-Madison | ABŞ | 39,154 | 10.0 | 13% | əks olunmayıb |
| =34 | University of California, San Diego | ABŞ | 33,579 | 13.0 | 23% | 46 : 54 |
| =34 | Northwestern University | ABŞ | 17,951 | 12.8 | 20% | 49 : 51 |
| 36 | Carnegie Mellon University | ABŞ | 13,430 | 13.6 | 48% | 41 : 59 |
| 37 | Lomonosov Moscow State University | Rusiya | 29,235 | 7.3 | 29% | 48 : 52 |
| 38 | University of British Columbia | Kanada | 52,108 | 18.1 | 32% | 55 : 45 |
| 39 | University of Melbourne | Avstraliya | 47,385 | 26.3 | 46% | 56 : 44 |
| =40 | McGill University | Kanada | 31,294 | 13.0 | 29% | 58 : 42 |
| =40 | National Taiwan University (NTU) | Tayvan | 27,254 | 11.1 | 11% | 40 : 60 |
| =42 | École Polytechnique Fédérale de Lausanne | İsveçrə | 10,492 | 11.4 | 59% | 28 : 72 |
| =42 | LMU Munich | Almaniya | 34,519 | 34.7 | 17% | 61 : 39 |
| 44 | Georgia Institute of Technology | ABŞ | 21,372 | 18.3 | 27% | 33 : 67 |
| 45 | Seoul National University | Cənubi Koreya | 26,182 | 12.4 | 12% | əks olunmayıb |
| 46 | Paris Sciences et Lettres – PSL Research University | Fransa | 21,298 | 11.5 | 26% | 46 : 54 |
| 47 | King’s College London | Böyük Britaniya | 26,057 | 12.5 | 44% | 62 : 38 |
| =48 | University of Manchester | Böyük Britaniya | 37,038 | 14.4 | 40% | 53 : 47 |
| =48 | University of North Carolina at Chapel Hill | ABŞ | 35,419 | 9.4 | 8% | 57 : 43 |
| =50 | University of California, San Francisco | ABŞ | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb | əks olunmayıb |
| =50 | Sorbonne University | Fransa | 43,076 | 13.5 | 19% | 58 : 42 |
| 51-60 | University of California, Davis | ABŞ | 39,164 | 12.0 | 14% | 58 : 42 |
| 51-60 | Delft University of Technology | Niderland | 18,743 | 20.2 | 30% | 29 : 71 |
| 51-60 | Fudan University | Çin | 32,537 | 11.2 | 12% | 53 : 47 |
| 51-60 | Heidelberg University | Almaniya | 20,800 | 16.1 | 18% | 54 : 46 |
| 51-60 | University of Hong Kong | Honkonq | 18,260 | 18.2 | 44% | 54 : 46 |
| 51-60 | KU Leuven | Belçika | 45,049 | 36.3 | 15% | 50 : 50 |
| 51-60 | University of Minnesota | ABŞ | 61,120 | 12.4 | 11% | 52 : 48 |
| 51-60 | Nanyang Technological University, Singapore | Sinqapur | 25,088 | 15.9 | 27% | 48 : 52 |
| 51-60 | Shanghai Jiao Tong University | Çin | 38,853 | 11.1 | 13% | 44 : 56 |
| 51-60 | University of Sydney | Avstraliya | 45,111 | 20.1 | 39% | 58 : 42 |
| 51-60 | Technical University of Munich | Almaniya | 40,472 | 47.8 | 27% | 34 : 66 |
| 61-70 | University of Amsterdam | Niderland | 26,723 | 13.5 | 18% | 56 : 44 |
| 61-70 | Humboldt University of Berlin | Almaniya | 33,463 | 56.1 | 17% | əks olunmayıb |
| 61-70 | Karolinska Institute | İsveç | 7,777 | 9.0 | 20% | 68 : 32 |
| 61-70 | Korea Advanced Institute of Science and Technology (KAIST) | Cənubi Koreya | 9,481 | 10.2 | 8% | 20 : 80 |
| 61-70 | Osaka University | Yaponiya | 22,892 | 7.4 | 11% | 32 : 68 |
| 61-70 | Penn State (Main campus) | ABŞ | 46,204 | 15.3 | 16% | 46 : 54 |
| 61-70 | Purdue University West Lafayette | ABŞ | 40,451 | 15.7 | 23% | 43 : 57 |
| 61-70 | University of Science and Technology of China | Çin | 16,245 | 7.7 | 4% | əks olunmayıb |
| 61-70 | University of Southern California | ABŞ | 36,929 | 11.7 | 25% | 53 : 47 |
| 61-70 | Zhejiang University | Çin | 33,427 | 10.7 | 22% | 23 : 77 |
| 71-80 | Australian National University | Avstraliya | 17,359 | 17.8 | 44% | 52 : 48 |
| 71-80 | Boston University United States | ABŞ | 25,662 | 11.6 | 27% | 60 : 40 |
| 71-80 | Brown University | ABŞ | 9,391 | 10.8 | 20% | əks olunmayıb |
| 71-80 | University of Copenhagen | Danimarka | 31,219 | 4.3 | 17% | 57 : 43 |
| 71-80 | Leiden University | Niderland | 28,741 | 18.7 | 16% | 59 : 41 |
| 71-80 | University of Maryland, College Park | ABŞ | 33,108 | 16.6 | 11% | 48 : 52 |
| 71-80 | Michigan State University | ABŞ | 44,789 | 16.5 | 16% | 51 : 49 |
| 71-80 | Monash University | Avstraliya | 52,989 | 33.9 | 39% | 57 : 43 |
| 71-80 | Ohio State University (Main campus) | ABŞ | 54,372 | 12.5 | 13% | 50 : 50 |
| 71-80 | Tohoku University | Yaponiya | 17,735 | 8.2 | 12% | 27 : 73 |
| 81-90 | University of California, Santa Barbara | ABŞ | 24,089 | 27.6 | 16% | 52 : 48 |
| 81-90 | École Polytechnique | Fransa | 3,030 | 5.7 | 40% | 22 : 78 |
| 81-90 | Free University of Berlin | Almaniya | 35,894 | 58.2 | 21% | 59 : 41 |
| 81-90 | RWTH Aachen University | Almaniya | 45,377 | 61.1 | 21% | 32 : 68 |
| 81-90 | Sungkyunkwan University (SKKU) | Cənubi Koreya | 23,342 | 19.5 | 15% | 43 : 57 |
| 81-90 | The University of Queensland | Avstraliya | 39,144 | 35.7 | 34% | 55 : 45 |
| 81-90 | Tokyo Institute of Technology | Yaponiya | 9,752 | 7.7 | 13% | 15 : 85 |
| 81-90 | Wageningen University & Research | Niderland | 13,914 | 21.3 | 27% | 53 : 47 |
| 81-90 | University of Warwick | Böyük Britaniya | 20,599 | 13.2 | 41% | 49 : 51 |
| 81-90 | Washington University in St Louis | ABŞ | 13,401 | 7.5 | 20% | əks olunmayıb |
| 91-100 | University of Florida | ABŞ | 46,642 | 16.8 | 10% | 55 : 45 |
| 91-100 | Indiana University | ABŞ | 66,872 | 13.6 | 15% | 52 : 48 |
| 91-100 | Lund University | İsveç | 27,266 | 12.1 | 19% | 54 : 46 |
| 91-100 | Panthéon-Sorbonne University – Paris 1 | Fransa | 33,883 | 26.1 | 21% | 59 : 41 |
| 91-100 | University of São Paulo | Braziliya | 83,214 | 15.9 | 4% | 48 : 52 |
| 91-100 | Texas A&M University | ABŞ | 60,818 | 24.8 | 8% | 47 : 53 |
| 91-100 | The Hong Kong University of Science and Technology | Honkonq | 10,125 | 22.3 | 31% | əks olunmayıb |
| 91-100 | UNSW Sydney | Avstraliya | 44,336 | 35.7 | 41% | 47 : 53 |



